Bu bir xalq qəzetidi

ƏDALƏT

## Şuşa ilə bağlı qanun layihəsi qəbul olundu

**Milli Məclisin dünən keçirilən sonuncu plenar iclasında "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.**

Adalet.az xəbər verir ki, qanun layihəsinə əsasən, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa şəhəri Dövlət Qoruğu yaradılacaq.

Şuşa şəhərinin inzibati sərhədlərinə bitişik yerləşən və onunla təbii landşaft, sosial, tarixi, mədəni və ya təsərrüfat bağlılığı olan və ya Şuşa şəhəri Dövlət Qoruğunun mühafizəsi, qorunması və ya inkişafı üçün əhəmiyyətə malik olan ərazilərdə publik hüquqi şəxs tərəfindən mühafizə zonasının sərhədləri müəyyən ediləcək.

Müzakirələrdən sonra layihə III oxunuşda səsverməyə çıxarılaraq qəbul edilib.

## Ərdoğan NATO sammitindən sonra Bakıya gələcək

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Belçikada NATO sammitinə qatılacaq, ardınca isə Bakıya gələcək. Bu barədə "Son Dakika" xəbər verib.*

*Məlumata görə, Türkiyənin dövlət başçısı iyunun 13-14-də Brüsseldə NATO sammitində iştirak edəcək və ABŞ Prezidenti Co Bayden ilə görüşəcək. Brüssel sammitindən sonra isə o, iyunun 14-16-da Bakıda səfərdə olacaq.*

## Kamran Əliyev türkiyəli həmkarını təltif edib

**Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin Azərbaycanın Baş prokuroru Kamran Əliyev tərəfindən təltif edilib.**

Adalet.az-ın məlumatına görə, bu barədə Baş prokuror Kamran Əliyev müvafiq əmr imzalayıb. Əmrə əsasən, B.Şahinə Azərbaycan Respublikasında prokurorluq orqanlarının 100 illiyi münasibətilə medal təqdim edilib.

## Milli Məclisin növbədənkənar iclasları keçiriləcək

**İyun ayında Milli Məclisin növbədənkənar iclasları olacaq.**

Adalet.az-ın məlumatına görə, bu barədə parlamentin spikeri Sahibə Qafarova deyib. S.Qafarova bildirib ki, növbədənkənar iclasların keçirilməsi ilə bağlı təkliflər olub və müvafiq sərəncam imzalanıb.

## Milli Məclis büdcə layihəsini ikinci oxunuşda təsdiq etdi

**Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb.**

Adalet.az-ın məlumatına görə, qanun layihəsinə əsasən, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 681 milyon 734,6 min manat, xərcləri isə 26 milyard 416 milyon 297,5 min manat təşkil edilib.

Büdcə kəsiri 1 milyard 734 milyon 562 912 manat təşkil edib. 2021-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı isə 1 milyard 526 milyon 094 088 manat olub.

Müzakirələrdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda təsdiq edilib.

## "Düşmən təxribatlarının qarşısının alınması məqsədilə qətiyyətli addımlar atılsın"

**Mayın 31-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə yerləşən birlik və birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunub.

General-polkovnik Z.Həsənov son günlər Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində yaranmış vəziyyəti təhlil edib. O, əməliyyat şəraiti ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarını və qarşıya qoyduğu vəzifələri müşavirə iştirakçılarına çatdırıb.

Xidməti-döyüş fəaliyyətinin təşkili ilə bağlı məsələləri xüsusi qeyd edən Müdafiə naziri düşmən təxribatlarının qarşısının alınması ilə bağlı azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrin komandanlığına qətiyyətli addımların atılması və çevik tədbirlərin görülməsini tapşırıb.

## Deputat: "Toylara icazə verilməlidir"

**Milli Məclisin iclasında Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ölkədə toyların keçirilməsinə və teatrların fəaliyyətinə icazə verilməsi məsələsinə toxunub.**

Adalet.az-ın məlumatına görə, Q.Paşayeva teatrların fəaliyyətə başlamasının zəruri olduğunu da bildirib.

"İnsanlarımız çox xahiş edirlər ki, açıq havada məhdud sayda iştirakçı ilə toy məclislərinin keçirilməsinə icazə verilsin. Demirik ki, çoxlu insan qatılsın, az sayda iştirakçı ilə açıq havada qaydalara riayət etməklə toy etmək olar.

Teatrlar da qaydalara riayət etmək şərti ilə açılmalıdır. Bu həm bizim, həm də sənətsevərlərin xahişidir", - deyə o söyləyib.

## Elvin Hüseynov: "YAŞAT" Marafonu uğurla həyata keçirilib

**"YAŞAT" Marafonu çox uğurla həyata keçirilib. Trend-in məlumatına görə, bunu Fondun rəhbəri Elvin Hüseynov deyib. Onun sözlərinə görə, marafon ərəfəsində müxtəlif vasitələrdən 45 çağırış edilib:**

"Bir aya yaxın davam edən marafon çox uğurla həyata keçirilib. Məqsəd dünya azərbaycanlılarını bir yumruq altında birləşdirərək bizə zəfəri bağışlayan şəxslərə dəstək olmaq idi. Marafon Kolumbiyaya qədər çatmışdır.

Düşünürəm ki, bu marafon bir dəfə keçirilməklə yekunlaşmamalıdır. Dünyanın ən uzaq ölkələrindən və çox az sayda yaşan yerlərdən belə yardımlar edilib".

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 56 (5888) 1 iyun 2021-ci il | Qiyməti 30 qəpik

# XİN Minsk Qrupunun cavabını verdi

**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 28 may 2021-ci il tarixli bəyanatına münasibət bildirilməsi ilə bağlı KİV-in sualını cavablandırıb.**

**Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, L.Abdullayeva bildirib:**

**"Həmsədrlərin bəyanatında qeyd etdiyi məsələlər, o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədində yaşanan son gərginliklər, diversant qrupun Azərbaycan ərazilərinə daxil olaraq terrorçu-təxribat aktı törətmək cəhdi, delimitasiya və demarkasiya prosesi, habelə bölgəyə humanitar çıxışın təmin edilməsi ilə bağlı mövqeyimiz dəfələrlə rəsmi açıqlamalarda bildirilib.**

**Azərbaycan azad olunmuş ərazilərin bərpası və insanların bu ərazilərdə yenidən sülh şəraitində birgə yaşayışının təmin edilməsi üçün bütün səylərini səfərbər edib və müvafiq tədbirləri həyata keçirir.**

**Beynəlxalq humanitar təşkilatlarla beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq həyata keçirilir, o cümlədən Qarabağda müharibənin təsirinə məruz qalan insanlara humanitar yardımın göstərilməsi üçün müvafiq addımlar atılıb.**

Bax:səh-2

## Azərbaycanla Türkiyə arasında anlaşma memorandumu imzalanıb

**Azərbaycan ilə Türkiyə arasında daha bir anlaşma memorandumu imzalanıb.**

Adalet.az-ın məlumatına görə, imzalanma mərasimi Baş Prokurorluqda keçirilib.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev və Türkiyənin Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalayıb.

Mərasim zamanı ölkələr arasında beynəlxalq hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyi bildirilib.

## "Bakı Metropoliteni" yeni stansiyanın inşasına hazırlaşır

**"Bakı Metropoliteni" QSC Bənövşəyi xəttin "Avtovağzal", "Memar Əcəmi" və "8 noyabr" stansiyalarından sonra sayca 4-cü olacaq və şərti olaraq B4 adlanan yeni stansiyasının inşasına hazırlaşır.**

Bu barədə qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov məlumat verib.

"Stansiyanın inşası ilə bağlı ilkin hazırlıq işləri başlayıb. Burada ən müasir inşaat üsullarından istifadə ediləcək. O cümlədən divarlarda qrunt üsulu tətbiq ediləcək.

Bu usulun ən böyük üstünlüyü məhdud ərazidə maksimum keyfiyyətli işə imkan verməsidir. Tikinti ərazisində müvafiq "svay"ların vurulması ekoloji təmizliyi təmin edəcək, eyni zamanda qatarların hərəkəti zamanı ətrafa yayılan səsi məksimum azaldacaq.

B4 stansiyası Bakının Cəlil Məmmədquluzadə küçəsində, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin arxasında inşa edilir.

## Azad olunan ərazilərdə daha 104 mina aşkarlanıb

*Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı təqdim edib. ANAMA-dan verilən məlumata görə, mayın 24-dən 29-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 90, tank əleyhinə 14 mina və 75 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.*

*Nəticədə 1 783 989 m² (178 ha) ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.*

## DSX Ermənistanla sərhəddəki vəziyyətlə bağlı məlumat yaydı

**Dövlət Sərhəd Xidməti sosial şəbəkələrdə Zəngilan rayonu ərazisində dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupunun Azərbaycan ərazisinə keçməyə cəhd göstərərkən zərərsizləşdirilməsi, qrupun iki üzvünün saxlanılması barədə yayılan iddialara münasibət bildirib.**

DSX-dan Adalet.az-a bildirilib ki, yayılan məlumatlar həqiqəti əks etdirmir: "Ermənistanla dövlət sərhədində vəziyyət stabildir və bölmələrimizin tam nəzarəti altındadır".

## Bakıda hakim arvadını qətlə yetirib

**Sabunçu rayonunda qətl törədilib. Trend-in məlumatına görə, Fəqan Əhmədov həyat yoldaşı Pərvanə Əhmədovanı odlu silahla qətlə yetirib.**

Faktla bağlı Sabunçu rayon Prokurorluğunda araşdırma aparılır.

Hadisəni törətməkdə şübhəli bilinən F.Əhmədov Sabunçu Rayon Məhkəməsinin hakimidir.

## Dünya ipoteka reytinqində Azərbaycanın yeri açıqlandı

*İpotekadan asan istifadəyə dair dünya reytinqində Azərbaycan 109 ölkə arasında 82-ci yer tutaraq 2 pillə geriləyib. Reytinqin ilk beşliyində müvafiq olaraq Səudiyyə Ərəbistanı, Puerto Riko, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Danimarka, son beşlikdə isə Argentina, İran, Suriya, Şri Lanka, Kamboca qərarlaşıb. Qeyd edək ki, İpoteka və Kredit Zəmanəti Fondunun agent bankları bu ilin birinci rübündə 97,5 milyon manat məbləğində (mart ayında 39,8 milyon manat) ipoteka kreditləri verib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,8 dəfə çoxdur. Eyni müddət ərzində 58,3 milyon manat (4,1 dəfə artıq) məbləğində kreditlər yenidən maliyyələşdirilib.*



*Rəfail Tağızadə*

## Ağdam – varlığın yoxluq səhnəsi

Bax:səh-3

## 79 dövlət əmlakı hərraca çıxarılacaq

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən iyunun 29-da hərrac təşkil ediləcək.**

Bu barədə Əmlak Məsələləri Dövlət Xidmətindən bildirilib. Hərraca 79 dövlət əmlakı çıxarılacaq. Bunlara 35 səhmdar cəmiyyətinin səhmləri, 28 nəqliyyat vasitəsi, 16 kiçik dövlət müəssisəsi və yarımçıq tikili aiddir. Özəlləşdirməyə çıxarılan dövlət əmlakının tam siyahısı ilə burada tanış ola bilərsiniz: (https://bit.ly/3c5wjt7). Özəlləşdirmə hərraclarında iştirak etmək istəyən şəxslər Xidmətin rəsmi saytından (emlak.gov.az) və ya Özəlləşdirmə portalından (privatization.az) hərraca çıxarılan dövlət əmlakı üzrə seçim edə bilər. Elektron Xidmətlər Portalından (e-emlak.gov.az) müvafiq hərrac xidmətini seçərək qeydiyyatdan keçib, dövlət əmlakının ilkin hərrac qiymətinin 10 %-i məbləğində behi ödəyib hərracda iştirakçı statusu almaq mümkündür. Sifarişçilər hərraclara onlayn formada da qoşula bilər.

Hərrac günü prosesə marağı olanlar həm Əmlak Xidmətləri Məkanına gəlməklə, həm də Əmlak Məsələləri Dövlət Xidmətinin Elektron Xidmətlər Portalından (e-emlak.gov.az) "Elektron hərrac" bölməsini seçərək hərracları qeydiyyatsız formada izləyə bilərlər.

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı yaxşı əhval-ruhiyyədədi.

Aqil müəllim:

**- Vəli, xeyir ola, genə kefin yuxarıdı?**

Vəli:

**- Hə qağa, cavan vaxtı fikirləşirdim ki, 50 yaşına çatana kimi, çoxlu pulum olar, iki mərtəbəli villam olar, xarici maşınım olar, ahıl vaxtımda kef çəkərəm. İndi sevinirəm, nə yaxşı heç olmasa arzumun birinə - 50 yaşa çata bilmişəm.**

## Ağdam və Tərtərdə subartezian quyularının qazılmasına 1,4 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Ağdam və Tərtər rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Ağdam və Tərtər rayonlarının əhalisi 25950 nəfər olan 18 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## *Sahibə Qafarova Pakistana səfər edəcək*

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 31-dən iyunun 4-dək Pakistan İslam Respublikasında işgüzar və rəsmi səfərdə olacaq.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədrləri Qənirə Paşayeva, Tahir Mirkişili, komitə sədrlərinin müavinləri Məlahət İbrahimqızı, Tahir Kərimli, deputat İlham Məmmədov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər çərçivəsində nümayəndə heyətimiz ölkənin paytaxtı İslamabadda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransında iştirak edəcək, tədbirdə müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirəcək. Konfransda Milli Məclisin Sədri çıxış edəcək. Burada Milli Məclis Sədrinin nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşləri nəzərdə tutulub.

Pakistan tərəfinin dəvəti ilə iyunun 3-dən başlayacaq rəsmi səfər çərçivəsində parlamentin Sədri Sahibə Qafarovanın Pakistan İslam Respublikasının Prezidenti, Baş naziri, Senatın Sədri, Milli Assambleyanın Spikeri və ölkəmizlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşləri gözlənilir. Səfər çərçivəsində baş tutacaq görüşlərdə parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf istiqamətləri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi barədə fikir mübadiləsi aparılacaq.

**Nicat Novruzoğlu**

## *XİN Minsk Qrupunun cavabını verdi*

**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 28 may 2021-ci il tarixli bəyanatına münasibət bildirilməsi ilə bağlı KİV-in sualını cavablandırıb.**

Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, L.Abdullayeva bildirib:

"Həmsədrlərin bəyanatında qeyd etdiyi məsələlər, o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədində yaşanan son gərginliklər, diversant qrupun Azərbaycan ərazilərinə daxil olaraq terrorçu-təxribat aktı törətmək cəhdi, delimitasiya və demarkasiya prosesi, habelə bölgəyə humanitar çıxışın təmin edilməsi ilə bağlı mövqeyimiz dəfələrlə rəsmi açıqlamalarda bildirilib.

Azərbaycan azad olunmuş ərazilərin bərpası və insanların bu ərazilərdə yenidən sülh şəraitində birgə yaşayışının təmin edilməsi üçün bütün səylərini səfərbər edib və müvafiq tədbirləri həyata keçirir. Beynəlxalq humanitar təşkilatlarla beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq həyata keçirilir, o cümlədən Qarabağda müharibənin təsirinə məruz qalan insanlara humanitar yardımın göstərilməsi üçün müvafiq addımlar atılıb.

Həmsədrlərin bəyanatında istinad etdiyi saxlanılan 6 erməni hərbçisi ilə bağlı xatırladırıq ki, bu erməni hərbçiləri yolların minalanmasına yönəlmiş təxribat törədərkən saxlanılıb. Azərbaycanın azad olunmuş ərazilərində Ermənistan tərəfindən basdırılmış minalar gündəlik əsasda insanların həyatına təhlükə törətdiyi bir vaxtda, Ermənistanın minaların yeri ilə bağlı məlumatı təqdim etməkdən imtina etməsi, üstəlik əraziyə yeni minalar basdırmaq cəhdi heç bir çərçivəyə sığmır. Odur ki, həmsədrlər "hamının hamıya" prinsipi əsasında saxlanılan şəxslərin dəyişdirilməsini təklif etmədən öncə, ən azı bu şəxslərin saxlanma səbəblərinə diqqət ayırmalı, təxribatçıları bu kimi fəaliyyətdən çəkinməyə çağırmalıdır.

Dəfələrlə bəyan etmişik ki, biz sərhəd gərginliyi məsələsinin danışıqlar yolu ilə həllinin tərəfdarıyıq, habelə beynəlxalq ictimaiyyətin iki dövlət arasında sərhədin demarkasiya və delimitasiyası çağırışlarını dəstəkləyirik. Bildiyiniz kimi, bir müddət öncə bu məsələ ilə bağlı irəli sürülən Azərbaycan ilə Ermənistan arasında sərhədin delimitasiya və demarkasiyası üzrə müvafiq üçtərəfli komissiya yaradılması təklifini də Azərbaycan dəstəkləyib.

Yalnız beynəlxalq hüququn suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına ciddi riayət olunması əsasında dövlətlərarası münasibətlər normallaşdırıla bilər, sərhəd xəttinin demarkasiyası və delimitasiyasına başlamaq olar və nəhayət, sülh şəraitində birgə yaşayış üçün sağlam təməlin əsası qoyula bilər.

Həmsədr ölkələri isə öz növbəsində, üçtərəfli bəyanatların icrasını dəstəkləməklə bölgədə sülh və inkişafın təmin olunmasına töhfə verə bilər".

# AĞDAM DÜNYANIN ƏN MÜASİR ŞƏHƏRLƏRİNDƏN BİRİ OLACAQ

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 28 may tarixində Ağdam şəhərinin bərpa olunması Baş Planının təsdiq edilməsi üçün Ağdam rayonuna səfər edib.**

44 günlük Zəfər Qələbəsindən sonra, digər işğal altında olan ərazilərimiz kimi, Ağdam rayonuda erməni vandalizminin qurbanına çevrilib. Şəhər mərkəzi və işğaldan azad edilmiş kənd və qəsəbələrimizlərimiz tamamilə vəhşicəsinə dağıdılıb, bütün infarastrukturlar, mədəni - tarixi abidələrimiz məhv edilib.

10 noyabr 2020-ci il tarixdə demək olar ki, tamamilə məhv edilmiş işğalçı erməni ordusu məğlubiyyətini etiraf etdi və kapitulyasiya aktına qol şəkmək məcburiyyətində qaldı.

Ərazilərimizin azad edilməsindən dərhal sonra, Prezident İlham Əliyev işğaldan azad edilmiş bölgələ səfər etdi, vəziyyətlə yerində tanış oldu və dərhal tamamilə dağıdılmış şəhər və kəndlərin bərpa quruculuq işlərinə başlanması üçün Baş Planların hazırlanması barədə göstəriş verdi. Artıq Baş Planlar hazırdı və rayonların tanınmış şəxslərinin də təklifləri nəzərə alınaraq bir-bir təsdiq ediləcək, dağıdılmış ərazilər planlı şəkildə, müasir tələblərə uyğun olaraq bərpa ediləcək.

Bu gün azad olunmuş ərazilərdə artıq bərpa-quruculuq işlərinə başlanılıb vəsürətlə davam etdirilir. Ağdamda təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, ***"Ağdam şəhərinin infrastrukturu tamamilə bərpa olunacaq. Ağdam şəhəri üçün çox önəmli və 140 illik tarixi olan 1 saylı məktəbin təməli qoyuldu. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə bəlkə də minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir. Eyni zamanda, Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. İmarət kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası artıq hazırlanıb. Böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq".***

Münaqişənin həllində sülh və diplomatik üsullara sadiq qalan Azərbaycan ona qarşı 30 il ərzində tətbiq olunan ikili standartlar siyasəti ilə qarşılaşırdı.

Prezident İlham Əliyev şıxışında qeyd etdi ki, Azərbaycan münaqişənin sülh və diplomatik üsullarla həll olunması üçün bütün lazımi addımları atmışdır. Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin illər keçdikcə bu danışıqların sadəcə olaraq, status-kvonun əbədi qalmasına tiqamətləndirildiyi üzə çıxırdı. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora - işğalçıya təzyiq göstərmədilər, onlar beynəlxalq qaydalara uyğun olaraq işğalşı Ermənistanı beynəlxaq qanunlara əməl etməyə məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır.

***"Rəsmi İrəvan 30 ilə yaxın bir müddət ərzində yalnız təxribatlarla məşğul olub. Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda faktiki olaraq danışıqlar prosesinə son qoyuldu. Bütün danışıqlar dövrü - 2003-cü ildən son hadisələrə qədər Azərbaycan xalqı bütün proseslərin şahidi olub. Azərbaycanın mövqeyi bir çox hallarda vasitəçilər tərəfindən birmənalı qarşılanmırdı. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə də biz hər zaman deyirdik, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır.***

***Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi".***

Böyük Zəfər Qələbəmiz, bütün dünyaya ölkəmizin gücünü göstərdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun qələbəsinə bütün dünya şahidlik etdi. ***"Uğurlarımızın əsasında güclü dövlət və müstəqil siyasət dayanır. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü və müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinəyetirdi. Artıq bütün dünya Azərbaycanın gücünü gördü. 44 günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı".***

Prezident cıxışında Azərbaycanın qalib dövlət kimi inkişaf edəcəyini, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələolduğunu və heç vaxt bizim bu vəziyyətlə barışmadığımızı və bunu hər zaman açıq bəyan etdiyimizi vurğuladı. ***"İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Bizim müharibəmiz təkcə faşist Ermənistan dövlətinə qarşı deyildi, bizim müharibəmiz faşizm əleyhinə müharibədir. Ermənistan məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə Ağdam deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, ermənilərin aqibətinə bənzər olacaq".***

***"Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibə öyrənilir. 44 günlük müharibə şanlı tariximizdir. Bu tarix əbədi qalacaqdır, bu tarix dərindən öyrənilməlidir və öyrənilir. Dünya miqyasında Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir. Əlbəttə ki, texniki imkanlarımız müharibənin nəticələrinə ciddi təsir etmişdir. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan;***

***Bütün təxribatlara adekvat cavab veriləcəkdir. Əfsuslar olsun ki, Ermənistan tərəfi öz təxribatçı əməllərindən əl çəkmir. Əgər xalqımızın, dövlətimizin təhlükəsizliyinə zərrə qədər təhlükə olarsa, dərhal yerindəcə düşməni məhv edəcəyik. Onlar da bizim gücümüzü bilirlər və görürlər. Ona görə son günlər ərzində Azərbaycan-Ermənistan sərhədi ərazisində Ermənistan ordusu tərəfindən törədilmiş təxribat, təbii ki, cavabsız qalmamalı idi və qalmadı".***

Şükürlər olsun ki, artıq bütün bular arxada qaldı, Azərbaycan Respublikasının Prezidenti Ağdam rayonunun Baş Planını təsdiq etdi. İşğaldan azad edilmiş ərazilərimizdə hərbi tüxnikaları, tikinti texnikaları əvəz edir. Böyük bərpa-quruculuq işlərinə start verilib. Prezident Ağdamda ilk yaşayış binasının, 140 illik tarixi olan şəhər 1-saylı məktəbin, yeni yaradılacaq Sənaye Parkının, şəhəri əhatə edəcək yaşıllıq zonalarının təməlqoyma mərasimlərində iştirak etdi.

**Hazırladı:**
**Rüstəm Hacıyev**

## *İran Araz çayının çirkləndirilməsi ilə əlaqədar Ermənistana xəbərdarlıqlar edib*

***İran Ermənistana Araz çayının çirkləndirilməsi ilə əlaqədar müxtəlif iclaslarda lazımi xəbərdarlıqları edib.***

***Bunu İranın energetika naziri Rza Ərdəkanian İran və Azərbaycan arasında Araz və Mil-Muğan su bəndlərinin birgə istifadəsinin 50 illiyi ilə əlaqədar keçirilən tədbir zamanı jurnalistlərə açıqlamasında deyib.***

***R.Ərdəkanianın sözlərinə görə, son illər İranın Energetika Nazirliyi Ermənistanın sənaye tullantılarının Araz çayına axıdılmasının qarşısının alınmasında ciddi iradə nümayiş etdirir.***

***Nazir əlavə edib ki, Ermənistanın Araz çayına tullantıların axıdılması ilə əlaqədar addımları hələ də münasib səviyyədə deyil:***

***"İran Azərbaycan, Türkiyə və Ermənistan arasında Araz çayının çirkləndirilməsinin qarşısının alınması və suyun keyfiyyətinin qorunması məqsədilə dördtərəfli iclasın keçirilməsi gündəmdədir.***

***Qeyd olunan iclasın tezliklə İranın ev sahibliyi ilə keçiriləcəyinə ümid edilir".***

***Qeyd edək ki, bu gün (31 may) İranın energetika naziri Rza Ərdəkanian, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, iki ölkə səfirləri və iki ölkənin bəzi yüksək səviyyəli rəsmilərinin iştirakı ilə keçirilən Araz və Mil-Muğan su bəndlərinin istifadəyə verilməsinin 50 illiyi və Qız Qalası su bəndinə su vurulması ilə əlaqədar tədbir keçirilib.(trend)***

## "Pensiya və müavinətlərin təyin edilməsində və ödənilməsində həllini gözləyən bəzi problemlər qalmaqdadır"

**"Sosial sahədə ünvanlılığın təmin olunmasına yönələn mütərəqqi addımlar atılsa da, pensiya və müavinətlərin təyin edilməsində və ödənilməsində həllini gözləyən bəzi problemlər qalmaqdadır". Bu fikirlər millət vəkili Könül Nurullayevanın 2020-ci il üçün nəzərdə tutulmuş dövlət büdcəsinin icrası vəziyyətinə dair parlamentə təqdim etdiyi çıxışında yer alıb. Millət vəkili qeyd edib ki, sosial siyasətin əhatəliliyinin təmin edilməsi və bu sahədə işlərin icrasına diqqət bir qədər də artırılmalı, pensiyaların hesablanması zamanı nöqsanlara yol verilməsi hallarının qarşısı daha ciddi şəkildə alınmalı, hesablanmamış və ödənilməmiş qalıq vəsaitin qısa müddətdə büdcə vəsaitləri hesabına pensiyaçılara ödənilməsi prosesi sürətləndirilməlidir.**

Ümumiyyətlə, 2020-ci il üçün nəzərdə tutulmuş dövlət büdcəsinin olduqca mürəkkəb dövrü əhatə etdiyini vurğulayan millət vəkili bildirib ki, ötən ilin dövlət büdcəsinin uğurlu icrası Pandemiya fəlakəti və Vətən müharibəsi kimi tarixi sınaqlardan çıxmağımızı şərtləndirməklə yanaşı, dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması və iqtisadiyyatın stimullaşdırılması istiqamətində müsbət rolunu oynayıb:

"Büdcə xərclərinin artıq 38,9 faizinə çatan sosial xərclər bütövlükdə ölkədə sosial qayğıya və dəstəyə ehtiyacı olan insanlar üçün sosial rahatlığın yaradılmasına mühüm töhfə verməkdədir." K.Nurulayeva həmçinin qeyd edib ki, ölkəmizin daha davamlı və dayanıqlı inkişafı büdcə vəsaitlərindən səmərəli istifadə və iqtisadi layihələrin icrasından birbaşa asılıdır. Dünya Bankı tərəfindən "Doing Business - 2020" hesabatı üzrə aparılan araşdırmaların nəticəsində Azərbaycan 191 ölkə arasında hər il qabaqcıl yerlərdən birində qərarlaşmışdır.

Lakin "Kiçik investorların qorunması" indikatoru üzrə hələ çox işlərin görülməsinə ehtiyac duyulduğu xüsusi qeyd edilmişdir".

Millət vəkili hesab edir ki, iqtisadi inkişafımıza maneə yaradan başlıca faktorlardan biri kimi kiçik investorların qorunması mexanizmlərinin daha səmərəli işlənməməsi qeyd edilir. Bu sahədə işlərin görülməsi vacibdir: "Sahibkarlıq sferasının hər təbəqəsi fəaliyyətini səmərəli şəkildə qurmalı və bu yöndə xüsusən xırda investorların risklərinin qorunmasına nail olunmalıdır. Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2020-ci ilin 11 ayı ərzində ümumi dəyəri 369 milyon manat güzəştli kreditlər verilib. Bu kreditlər hesabına 2282 yeni iş yerinin açılması imkanı yaranıb. Bundan əlavə olaraq, pandemiyanın təsirinin yumşaldılması ilə bağlı xüsusi tədbirlər planına əsasən, əlavə olaraq elektron kredit platforması vasitəsilə orta və kiçik sahibkarlara 163 milyon manat güzəştli, dövlət zəmanətli kreditlər ayrılıb."

**Sahibkarlığın inkişafının əhalinin məşğulluğu üzrə dövlət siyasətinin uğurla reallaşması kimi dəyərləndirən K.Nurullayevanın qənaətincə, pandemiyanın sahibkarlığın inkişafına ən mənfi təsiri əhalinin bir hissəsinin iş yerini itirməsi, yaxud fəaliyyətlərinin ciddi təhlükə altına düşməsidir. Millət vəkili bu istiqamətdə bəzi təkliflərini də qeyd edib: "hesab edirəmki, məşğulluğun təmin edilməsi və əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində bu kimi dövlət zəmanətli kredit portfeli genişləndirilərsə, özəl və dövlət sektoru arasında daha sıx və şəffaf meyarlarla əlaqələrin qurulmasına imkan yaradılaraq büdcə vəsaitlərinin daha səmərəli və məqsədəmüvafiq xərclənməsi işinə təkan verilmiş olar".**

**Nicat Novruzoğlu,**
**Parlament müxbiri**

*Rəfail Tağızadə*

# Ağdam – varlığın yoxluq səhnəsi

*Öpdüyüm torpaqdan həsrətin qoxusu ilə bərabər qan qoxusu da gəlirdi. Şəhidlərin tökülən qanı torpağa qarışıb. Torpaq qanla yoğrulub. Bu torpaqda bitən lalələrin qara xalları ləçəkləri boyadı.*

*Ağdamda 10 ballıq erməni zəlzələsi olub.*

*Dünyanın indiyədək görmədiyi, Rixter şkalası ilə ölçüyə gəlməz erməni zəlzələsi.*

*Bu zəlzələdən Ağdamda bir tikili qalmayıb. Sovet vaxtı tikilən binaların möhkəm beton dirəkləri də uçulub dağılıb. Nə vardısa, hamısı yerlə yeksandı. Sanki şəhərin varlığının üstündən 28 il yox, iki min il keçib.*

*Bakıdan gələn qonaqlara şəhərlər gözəli Ağdamı göstərib, onların heyranlığına qürurlandığımız şəhər indi qonaqları yoxluğu ilə heyrətləndirir.*

*Daşı daş üstə qalmayan, qonağın pişvazına çıxa bilməyən şəhərə baxıb nələr yaşadığımı onu yaşayanlar bilər.*

*Ağdam varlığın yoxluq səhnəsidi. Hər daşı bir binanı, bir evi; hər cığırı bir yolu xatırladan Ağdamın yoxluq səhnəsi.*

*Teatrı sökük-sönük, məscidi sükutlu, musiqi məktəbi səssiz, səs-küylü bazarı lal olan şəhər.*

*Doğmasının ölümündən yazmaq kimidi indi Ağdamdan yazmaq. Qatar Uzundərəyə çatanda hamımız hazırlaşardıq. Artıq Ağdama çatırıq. Səhər tezdən olsa da, Dəmir yolu vağzalı qaynayırdı. Doğma, tanış simalar. Şirindil insanların mehriban münasibəti adamı ovsunlayırdı. Şəhərə girəndə maşınların səsi şəhəri yuxudan oyadırdı.*

*İndi hara gedəcəyimi, hara düşəcəyimi bilmirəm. Vaakkuma düşən kimiyəm. Qəhər məni boğur. Məni qarşılayan təkcə xoş, doğma havadı. Bir də izimi sinəsində gizlədən torpaq.*

*Orada yaşamayanlar, sevincli günləri görməyənlər o ağrılı mənzərəni görəndə yaşadıqlarını, hisslərini ifadə etməkdə çətinlik çəkirlərsə, görün bizlər nələr yaşayırıq, nələr çəkirik...*

*Ağdamı dağılmış, viran qoyulmuş görmək çox ağırdı. Təsəllim "Nəsimi" filmində deyildiyi kimi: "Dövlət bəyin ölüsü də gözəldi" ifadəsi idi. Ağdamın da.*

*Torpaq varsa, Vətən var! Qalanı düzələr...*

*Ermənilərin özününküləşdirmək istədikləri, dəvət etdikləri xarici arxeoloqların hər qazıntıda "bura türk məskənidir" dediyi Şahbulaq qalasından bizim Boyəhmədli, Sofulu kəndinə 8-10 km-lik məsafə var. Bir də 28 illik zaman.*

*Kəndimizə gedib-gəldiyimiz bu yolla indi gedə bilməsəm də baxışlarımı yollayıram. İtiyi, qalığı axtarmağa. Nələri görəcəyi bəllidi, Qarabağın hər yerində olduğu kimi, ancaq dağıntılar... Nə xatirələri yaşadan evin divarı var söykənəsi, nə ağac var kölgəsinə sığınası. Tapacağı yoxluqda özünü saxlayan təsəlli torpaq, yurd yeri.*

*Hər dəfə Ağdamın Dörd yolundan keçəndə Ağdam tərəfə baxmağa utanırdım.*

*Bu dəfə o tərəfə can atırdım. Ağdamı görməyə tələsirdim. Həsrətinə yox deməyə. Ağdama qovuşmağa.*

*Bütün bu müvəqqəti ağrıların, hislərin sonunda "nə yaxşı ki, sənə gəldim, məbədim mənim" deyib Ağdama - torpağa baxıram. Qovuşduğuma, bu günümə şükür edirəm. Sevinirəm.*

*Taleyimdə ayrı düşməklə bərabər qovuşmaq da varmış.*

*Bu sevinc ayrı sevincdi.*

*Ağdamlılar yoxdan var edən, qurub-yaradandılar.*

*İndi daha gözəl, müasir tələblərə cavab verən Ağdam salınacaq. Ağdam yenə Qarabağın iqtisadi-siyasi mərkəzi olacaq.*

*İtən illərin yoxluq sükutu pozulacaq. Sözü, səsi özünə qayıdacaq. Məscidindən "Azan" səsi eşidiləcək, teatrında tamaşalar qoyulacaq. Hər küçədən, hər kənddən ağdamlıların ürəyə yatan məlahətli, şirin səsiylə muğamlar səslənəcək.*

*Həyat davam edəcək.*

*Hər tarix bir dərsdi.*

*Yaşadıqlarımız bizə çox ağrılı həyat dərsi keçdi. Olanlarına sahib çıxmağı, özününkünün qədrini bilməyi, dəyər verməyi, qorumağı, uzaqdan baxmağın acısını, yaşananları bir daha yaşamamağı öyrətdi.*

*Qarabağa, Ağdama, Şuşaya hər gedənə*

*Yolçu mənə quş göndər,*
*Dimdiyində torpağım*

*- deyirdim.*

*Axır ki, Ağdamıma özüm gəldim. Ağdamdan həsrətli köçən doğmalarımın, əzizlərimin qəbrinə səpməyə torpağı özüm gətirirəm.*

*Bu səfər həsrətin, nigaranlığın son günü idi.*

*Həyatda qovuşmaq qədər gözəl heç nə yoxdur.*

*Ayağın torpağına dəyəndə özün olursan. Varlığını hiss edirsən. Bu özünə qayıdışdı. Özünə baxıb ürəkdən "Bu mənəm!" - deyə bilirsən. Səssiz dediyin bu mən, hərbidə cərgədə qışqırdığın "Mən"dən daha uca və əzəmətli səslənir.*

*Məni MƏN edən AĞDAMIM!*

*Məni yaşadan məkan!*

*Sənə qovuşmaq həyatımın ən xoş anıdı!*

*28.05.2021*

## Kim Çen İndən 24 gündür xəbər yoxdur

*Koreya Xalq Demokratik Respublikasının (Şimali Koreya) lideri Kim Çen İn 24 gündür ictimaiyyət arasında görünmür.*

*Bunu Cənubi Koreyanın Birləşmə üzrə Nazirliyinin (Şimali Koreya ilə birləşmə məsələlərini kurasiya edir) sözçüsü mayın 31-də keçirdiyi brifinqdə bildirib.*

*Onun sözlərinə görə, dövlət başçısı sonuncu dəfə mayın 7-də ölkə paytaxtı Pxenyanda keçirilən konsertdə iştirak edib. Həmin gündən sonra o, xalq arasına çıxmayıb:*

*"Kim Çen İnin ictimaiyyət arasında görünməməsi bu il ən uzun dövr sayılır".*

*Cənubi Koreya rəsmisi Şimali Koreya liderinin ictimaiyyət arasında görünməməsinin səbəbini açıqlamayıb. O deyib ki, indiki şəraitdə bu barədə dəyərləndirmə aparmaq yersiz hərəkət olar.*

*Qeyd edək ki, 2020-ci ilin mayında Kim Çen İnın ciddi xəstəliyi və ya ölümü barədə xəbərlər yayılmışdı. O, yalnız 20 gün sonra ictimaiyyət arasında görünmüşdü.*

*Şimali Koreya lideri 2011-ci ildə atası Kim Çen İr öldükdən sonra hakimiyyətə gəlib.*

*MEHRİBAN*

# O MUZEYİ YARADAN KİŞİ ÇAĞDAŞ PROMETEY İDİ

*QƏZƏNFƏR PAŞAYEV*

**Hörmətli Aqil müəllim,**

Nə yaxşı ki, siz varsınız. Məqalələriniz adamın ürəyindən tikan çıxarır. "Ədalət" qəzetinin 25 may 2021-ci il tarixli sayında çap olunan "Kəlbəcərdə Şamil Əsgərov muzeyi..." yazınız istisna təşkil etmədi.

Məqaləniz hər iki Qarabağ müharibəsini göz önünə gətirdi. Birinci Qarabağ müharibəsində özüm üçün kəşf etdim ki, həzin bir musiqi, dərd-ələmi izhar edən bir şeir ağır bir yükü daşımaqda ürəyə toxtaq olur. İnanın ki, Birinci Qarabağ müharibəsi vaxtı Bəxtiyar Bahabzadənin "Belə getməz Qarabağ" dərdi və Xəlil Rza Ulutürkün "Davam edir 37" şeirləri olmasaydı, mənim ürəyim partlayardı. Xüsusən Mirzə Xəzər tez-tez radioda "Davam edir 37" şeirini oxuyanda göz yaslarımı saxlaya bilmirdim.

İkinci Qarabağ müharibəsində kəşf etdim ki, sevincdən dünyanın hər üzünü görmüş, toxtamış kişi də ağlayarmış. Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev möcüzəli, sehrli bir səslə "Əziz Şuşa, Sən azadsan!" - deyəndə sevincdən göz yaşlarımı saxlaya bilmirdim. Mən bu haqda təzəcə çapdan çıxmış "Xilaskarlar" kitabımda ətraflı yazmışam. Kitabı Sizə göndərmişəm. Yəqin, əlinizə çatıb.

**Aqil müəllim,**

Mən hələ vaxtilə gözəl şair, alim və ziyalı Şamil Əsgərovun yaratdığı "Diyarşünaslıq muzeyi" haqda dostum Hüseyn Kürdoğlunun "Kəlbəcərin muzeyi" adlı şeirini oxuduqdan sonra söz açmışdım (bax: Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. "Sabah", 2017, s.50-53).

Göstərdiyiniz kimi, ermənilər Kəlbəcəri tutduqdan sonra, Şamil Əsgərovun öz vəsaiti hesabına yaratdığı "Diyarşünaslıq muzeyi"nin nadir eksponatlarını talan etmişdilər.

Hüseyn Kürdoğlu "Kəlbəcərin muzeyi" şeirində bu "Diyarşünaslıq muzeyi"ni yaradan Şamil Əsgərovu "Onu yaradan kişi çağdaş Prometey idi", - deyə vəsf edir. Muzeyin etnoqrafik cəhətdən böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq çapda olan "Qəbələ keçmişdə və günümüzdə" kitabımın "Etnoqrafiya" fəslində də ondan söz açmışam. Çox zəngin olan bu muzey, Hüseyn Kürdoğlunun şeirindən də göründüyü kimi, tarixi keçmişimizi əks etdirən bir abidə idi. Muzeydə əkinçilik, maldarlıq, xalçaçılıq, suvarma, gündəlik kəndli həyatı, ümumiyyətlə diyarşü-naslıqla bağlı o qədər eksponatlar olub ki, nəinki etnoqraflarımız, eləcə də dilimizin leksikası, dialektologiyası və folklorumuz üçün ən qiymətli material kimi diqqəti çəkirdi.

Nə yaxşı ki, şairin vətənpərvər oğlu muzeyi bərpa etməklə məşğuldur. Bərzaniyə gərəkli olacağını düşünərək "Kəlbəcərin muzeyi" şeirini bütövlükdə təqdim edirəm:

*Kəlbəcərin muzeyi, bir nağıl muzey idi,*
*Zərrədən günəşəcən dünyada hər şey idi.*
*Bütün cah-calalıyla müsibətli yer idi,*
*Aylı, günlü, ulduzlu, kəhkəşanlı göy idi.*
*Bir nağıl muzey idi!*
*Miladdan o yana da, miladdan bu yana da*
*Ən qədim köhnə idi, ən yeni təzə idi.*
*Bir nağıl muzey idi!*
*Daşları neçə rəngdə bir qövsi-qüzeh idi,*
*Bir nağıl muzey idi!*
*Min illərin töhfəsi nə qədər yazı vardı,*
*Ələsgər sazı vardı,*
*Şəmşir avazı vardı.*
*Vurğunun xatirəsi onun yaraşığıydı,*

*Gözünün təbəssümü sanki ay işığıydı.*
*Qılınc, qələm, bir də saz,*
*Gərdəklər qotaz-qotaz,*
*Corablar qotaz-qotaz.*
*Xalçalar, nə xalçalar - Dəlidağ çəmənzarı,*
*Elin fəxri-vüqarı.*
*Neçə növ cəhrə-daraq,*
*Neçə növ dükçə-yumaq.*
*Babaların papağı, kotanı və çomağı,*
*Qayaların qoynunda gildən saxsı çırağı...*
*Ah, nələr vardı, nələr,*
*Nə töhfələr vermişdi, bu muzeyə nənələr?!*
*Günbatan və gündoğan,*
*Güney və Qüzey idi.*
*Bir nağıl muzey idi!*
*Qarlı zirvələr ilə o da üz-üzə idi.*
*Bir nağıl müzey idi!*
*Onu yaradan kişi çağdaş Prometey idi,*
*Dağıtdı bu nağılı, qarət eylədi yağı.*
*Vətənin sinəsindən getməz bu namərd dağı.*
*Kəlbəcərin muzeyi bir nağıl muzey idi,*
*Dünyada hər şey idi!*

Aqil müəllim, Qəbələ rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı X əsrə aid gildən düzəldilmiş saxsı çıraqlar üzə çıxarılmışdır.

Şamil Əsgərovun "Diyarşünaslıq muzeyi"ndə gildən düzəldilmiş saxsı çırağın olması bir daha təsdiq edir ki, "Kəlbəcərin muzeyi" həqiqətən də bir nağıl muzey imiş.

Aqil müəllim, Allaha şükürlər olsun ki, müzəffər ordumuzun hərbi qüdrəti və Ali Baş Komandanımızın uzaqgörən siyasəti ilə Qarabağ azad edildi. Qarabağlılar, inşallah, doğma yurd-yuvalarına qayıdacaqlar.

**Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının tarixi-etnoqrafik tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasının müdafiəsində opponenti olduğum, hazırda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Solmaz Məhərrəmova Qarabağın ermənilər tərəfindən işğalından əvvəl Laçın rayonunda "Diyarşünaslıq muzeyi"nin direktoru olub. Deməli, Diyarşünaslıq muzeylərinin yaranmasında məsləhət verəcək kadrlarımız vardır. Arzu edərdim, Qarabağın bütün rayonlarında Diyarşünaslıq muzeyləri yaradılsın. Keçmişimizin qədir-qiymətini bilək.**

# "Canımı qurban, qurban demişəm"

## *Polkovnik-leytenant Mehman Qənbərov zirvəsi*

**Günü yadımda qalmayıb amma oktyabr ayı idi. Əsgərlərə yardım aparmışdıq. Geri dönəndə yardım maşını Bakıya getməli idi deyə, mən Daşburunda düşəsi oldum. Hərbi geyimdə idim. Ağcabədiyə tərəf maşınlar seyrek-seyrək gedirdi. Coxunun da ici dolu. Xeyli gözlədim artıq toranlayırdı. Elə bu vaxt yanımda bir Mersedes markalı maşın dayandı . Arxada yaralı bir zabit oturmuşdu, qolu ayağı sarıqlı. İki hərbici, nisbətən gənc olanlar isə qabaqkı "sdeniya"da əyləşmişdilər. Salam verib hara gedəcəyimi soruşdular. Quzanlıya - dedim... Ağdama tərəf....**

**Zabit:** Biz Ağcabədiyə gedirik! Mehmanın yerlisi olduğunuza görə , gəlin, oturun. sizi də Ağcabədinin döngəsinə qədər aparaq - dedi və gülümsədi.

**- Mehman kimdi?** - dedim..

**- Boy, siz Mehmanı tanımırsınız?**

**- Vallah nə bilim, müharibə başlayandan biz tərəfdə internet yoxdu..**

İlk dəfə Mehman Qəmbərov haqda orda eşitdim. Zabit Mehmandan o qədər qürurla danışırdı ki, Agcabədiyə dönmədi, "çöl yolu" deyilən yerə qədər getdilər və məni Quzanlıya ən işlək yol olan Hindarx yoluna qədər apardılar...Sağ olsun, var olsun şərəfli Azərbaycan əsgər və zabitləri!

### *"Canımı qurban, qurban demişəm"- deyən oğullar*

30 il idi, qarabağlıların əlləri yurda doğru uzalı qalmışdı, 30 il idi "evim, elim , obam" deyib sızıldayır, ötən-keçən xatirələrin üzərinə çöküb ağlayır, amma qübarını, nisgilini ata bilmirdilər. Və elə ağlaya-ağlaya, sızlaya-sızlaya da anlayırdılar ki, bu həsrəti , qübarı, nisgili onların qəlbindən, beynindən. gözlərindən, ruhundan ancaq igidlərimiz silib ata bilər!Torpağı qanları ilə Vətən edən oğullar! Məhz onlar Azərbaycanın 30 illik yarasını sağaltmağı bacararlar və bacardılar! Elə oğullardan biri də Azərbaycan Ordusunun polkovnik-leytenantı Mehman Qənbərovdu! I Qarabağ müharibəsi qazisi Rafiq Kərimovla söhbət edirik. O bildirir ki, igid zabitimizlə qonşu olub, Mehmanın valdeynlərini ailəsini yaxından tanıyır. Rafiq bildirir ki, belə oğullar tək Məryəm xanımın , Nəriman qardaşın evindən yox, bütün xalqın evindən gedən oğullardandı. Bu ailə zəhmət-

keşliyinə, sadə və mehribanlığına görə kənddə hörmətə layiq olub. Mehman şəhid olan günlərdə "Qarabağ Qaziləri" İctimai birliyinin üzvləri ilə ailənin qonağı olduq. Yas mərasimində Mehmanı tanıyanların sözü-söhbəti onun igidlikləri, qorxmazlığı, əsgərinə balası kimi qaygı göstərməsindən danışdılar. Söhbətləri dinləyə-dinləyə düşünürdüm ki, nə yaxşı Mehman kimi soydaşım var və nə yaxşı ki, həmkəndlim, qonşum olub".

***Haşiyə:** Mehman Qənbərov 1981-ci il mayın 27-də Ağdam rayonunun Maqsudlu kəndində anadan olub. Ailəli idi. 2 oğlu yadigar qaldı.*

*Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Mehman Qənbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Mehman Qənbərov sentyabrın 30-da şəhid olub. Bərdə rayonunda dəfn olunub.*

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə, Ali Baş Komandan İlham Əliyevin 9 dekabr 2020-ci ildə onu "Qarabağ" ordeni ilə təltif edib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Mehman Qənbərov ölümündən sonra -15 dekabrda "Vətən uğrunda", Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə, 25 dekabrda isə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

### *"Mənim komandirim..."*

Elə şəhid zabitimizin iş yoldaşının mediaya açıqlaması da Rafiqin fikirlərini təsdiq edir. Həmin zabit deyib ki, M.Qəmbərovun əsgərlərinə qarşı general Polad Həşimov kimi nümunə olub. (Zabit hazırda xidmətdə olduğu üçün adını açıqlanmamasını xahiş edib) :"Mehman hərbi hissənin Maddi Təminat üzrə rəisi idi. O, yaralı tabor komandirinin yerinə könüllü olaraq döyüşə girib. Füzuli uğrunda gedən döyüşlərdə şəhid oldu. Biz onunla həmyerliyik və bizi 2016-cı ildə Lələ təpədə tanış etmişdilər. Mehman harda xidmət edibsə, həmişə hörmət qazanıb, onun başına and içiblər. 2016-cı il Şanlı Aprel döyüşlərində də xüsusi qəhrəmanlıq göstərib. Mehmanın şəhid olduğunu eşidəndə hamı ağlayırdı. Mən bilirdim ki, onun iki körpəsi var, amma evinə getməyib, Füzulidə tabor komandiri olanda əsgərlərinə lazım olan köməkliyi edib. O, şəhid olanda bir əsgəri yanımda ağlayıb deyirdi ki, "Mehman mənim komandirim olub. Xəstələnmişdim, evimə deyə bilmirdim, amma müalicəmi Mehman etdirib". (Moderator.az)

Mehman Qəmbərov nəinki ailəsi. kəndi. dogma şəhəri, dogma Qarabağı erməni əsirliyində, düşmən tapdağında idi. Mehman və yüzlərlə igidimiz tapdaq altda qalmış o müqəddəs yurdları öz qanları bahasına azad etdilər!

Elə müqəddəs kitablarda şəhidlərimizin müqəddəsliyi də açıqca göstərilib:

**"Cənnətə daxil olan heç kəs, hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, (bunların əvəzini vermək üçün) 10 dəfə dünyaya qayıdıb öldürülməyi arzu edər".**

**"Öz ailəsini zülmdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Öz malını zalımdan qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Öz qonşusunu zülmdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Allah naminə öldürülən şəxs şəhiddir.**

**Özünü təcavüzdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Zülmü aradan qaldırmaq yolunda öldürülən şəxs şəhiddir".**

**"Kim Allah yolunda savaşıb yaralansa, qiyamətdə bədənindən müşk ətri gələr. Kim şəhid olmağı sidq ürəklə Allahdan istəsə, hətta öz əcəli ilə yataqda ölsə belə, Allah ona şəhidin savabını verər".**

**Dəyərli olduğunuz cənnətiniz mübarək, şəhidlərim!**

**Əntiqə Rəşid**

# *Petrosyan:* "Böyük Ermənistan"dan imtina etməliyik"

**Biz keçmişdən dərs götürməliyik, müvafiq nəticələr çıxarmalıyıq.**

Bunu Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyan yerli KİV-lərə müsahibəsində deyib. O, "Dənizdən-dəniz böyük Ermənistan", "Kürdən Araza qədər ölkə" ideyalarından imtina edilməsi gərəkdiyini bildirib.

Ter-Petrosyan hakimiyyətə gələn qüvvənin ölkədəki situasiyanı, qonşularla problemləri, hansı xarici çağırışlarla toqquşduğunu bilməli, onun realist yollarla həllinə çalışmalı olduğunu deyib:

"Arzular yetişməmiş cəmiyyətlərə xasdır. Böyük güclər ətrafında böyük institutlar, analitiklər, tədqiqat təşkilatları çalışırlar, onlar hər detala diqqət yetirirlər. Yəni siyasi addımlardakı plyusları və minusları qiymətləndirirlər. Belə yanaşmaya adaptasiya olmayan insanlar dövləti idarə etmək qabiliyyətində deyillər".

Eks-prezident Ermənistan ordusunun vəziyyətinin 90-cı illərdəkindən də zəif olduğunu söyləyib. Onun sözlərinə görə, nə Robert Köçəryan, nə Serj Sərkisyan, nə də Vazgen Sərkisyan zamana güvənilməməsi gərəkdiyini anlayırdı.

**MEHRİBAN**

# Volodin: Qərb Baydenə bunu zorla qəbul etdirir

**Avropa Parlamenti və onun spikeri David Sassoli Rusiyaya ünvanlanmış bəyanat və açıqlamaları ilə Vladimir Putin və Co Baydenin görüşü ərəfəsində qarşıdurma gündəliyi yaradır və bununla da siyasi xal toplamağa çalışır.**

Bunu Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin sosial şəbəkə hesabında yazıb.

"Avropa Parlamenti Rusiya və ABŞ prezidentlərinin qarşıdakı görüşünü bəhanə kimi istifadə etməklə siyasi çəkisini artırmaq istəyir. Əslində, Avropa Parlamenti Co Baydenə Vladimir Putinlə görüşdən əvvəl qarşıdurma gündəliyini zorla qəbul etdirir. O, bu yolla təzyiq etmək və görüş üçün mənfi fon yaratmaq istəyir", - o bildirib.

**MEHRİBAN**

# Bir qoca arvad...

## TV-lərin gününü ağı deyib ağlasın

**Sovet dönəmi ilə müqayisədə bu gün ölkəmizdə çoxlu televiziya kanalları fəaliyyət göstərir. Və o vaxtlar cəmi bir televiziya kanalı var idi - Az.TV! Və o kanala da ölkəmizdə demək olar ki, elə hamı baxırdı. Sovet hökumətinin öz ideoloji xətti var idi. Amma bu xətlə yanaşı, insanları maraqlandıran, düşündürən çoxlu sayda verilişlər də efirə hazırlanırdı və birmənalı olaraq deyə bilərik ki, o verilişləri, o proqramları tamaşaçılar çox böyük səbirsizliklə gözləyir, həvəslə baxırdılar. İndi mən həmin verilişlərin adını sadalayıb oxucularımızı yormaq istəmirəm. Ən azından yaşlı və orta nəslin nümayəndələri çox yaxşı xatırlayır ki, o proqramlar necə maraqlı idi. Çünki bütün verilişlər peşəkarlar tərəfindən hazırlanır, redaktor, rejissor və bədii şura süzgəcindən keçir və beləcə insanların yaddaşında qalırdı...**

### İndi heç kimin xətrinə dəyməsin

Dəysə də nə qədər istəyir su içə bilər. Bax, bu gün ölkəmizdə çoxlu kanallar fəaliyyət göstərsə də, onların heç biri o vaxtkı Az.TV kimi tamaşaçının yadında qalmır. Düzdür, müasir Az.TV var, İcitmai TV var, Real TV var. Bunlar da müəyyən qədər tamaşaçı auditoriyası nəzərə alınır. Amma bu kanallar da hələ ki, böyük tamaşaçı kütləsinin tam sevimlisinə çevrilə bilməyib. Təbii ki, hər kəsin öz dünyagörüşü, öz yanaşma tərzi və öz düşüncəsi var. Amma bu, o demək deyil ki, özəl kanallar (qoy adlarını çəkim ki, tamaşaçılar yaxşı yadda saxlasın; Xəzər TV, ATV, Space, Lider TV) tamaşaçıların zövqünü korlayan bəsit və insanlarda nikbin ovqat aşılamayan verilişlər efirə çıxarmalıdırlar. Yəni, sanki onlar Azərbaycan tamaşaçısının zəif və zərif nöqtələrini bilib, ona da uyğun verilişlər hazırlayırlar. Bu verilişlərin bu günü olsa da, sabahı yoxdur. Ən azından ona görə ki, o verilişlər insanları maarifləndirməyə deyil, ucuz reytinqə hesablanıb. Çünki əksər özəl kanallardakı verilişlər reytinq gətirmirsə, onu tez də bağlayırlar. Buna səbəb kimi də bildirirlər ki, maarifçilik və vətənpərvərlik mövzusunda bəhs edilən verilişlərə sponsorluq edən yoxdur.

***Bax, bu sponsor bəlası bizim əsas ağrıyan yerimizdir. Bir də görürsən ki, düşük bir müğənniyə, xüsusən də qadın müğənniyə babat görünüşü olduğu üçün yaxşı sponsorlar tapılır. Hətta ona yardım etməyə növbədə duran pullu adamlar var. Bir səviyyəsiz müğənniyə "Qalenvager" bağışlayan pullu adam şəhid ailəsinə beşon manat pul verib yardım etmək istəmir. Yaxud da o şəhidin xəstə balasına, ya da uçub-dağılan evinə min manat verməyə canı çıxır. Amma televiziyada bir "matışka" görəndə ona ətək-ətək pul xərcləyir. Buna görə təəssüflənmir də. Əksinə, xeyirdə-şərdə özünü yekə-yekə aparır ki, o filan qadın müğənnini maaliyyələşdirir, yaxud da sadə dildə desək, onu "saxlayır".***

### Özəl kanallara baxanda

adamın əti tökülür. Heç elə ətimiz də qalmayıb ha. Sanki televiziyalar bir-biri ilə müğənni yarışına girib. O müğənni yarışına ki, pul müğənnilərdədir və onları da özəl kanallar öz torlarına salıblar. Adını çəkdiyimiz o özəl kanalların hər birində gün ərzində üç-dörd belə "vur çatlasın, çal oynasın" verilişi efirə gedir. Musiqini, mahnını, lap muğamı elə hörmətdən salıblar ki, adam ən yaxşı xanəndəyə belə qulaq asmaq istəmir. Çünki bir çox xanəndələr də artıq "o kanal sənin, bu kanal mənim" - deyib efirə çıxır . Olan-qalan hörmətini də itirir. Mənim tanıdığım bir xanəndə var. Ona o qədər hörmətim olub ki, səsi üçün də həmişə darıxmışam. Amma son vaxtlar bu kanaldan o kanala, o kanaldan da bu kanala çıxıb oxuyur. Biz demirik ha pis oxuyur. Adamın insafı var. Çox yaxşı oxuyur. Amma sadəcə olaraq tez-tez efirə çıxması ona hörmət yox, hörmətsizlik gətirir. İndi siz fikirləşin. Hətta ən istedadlı müğənni, xanəndə hər gün efirdə görsənsə, görün onda tamaşaçı belə xanəndələrdən necə bezir. Hər şeyin, hətta reklamın da bir həddi var. Gərək reklam da olanda, elə reklam olunasan ki, o anti-reklama çevrilməsin. Və yaxud sadə dillə desək, camaat səndən bezməsin. Bax, burda böyük Nizaminin bir beyti yadımıza düşür:

*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da...*

Sanki Azərbaycan beş-on müğənnidən, beş-on siyasətçidən, beş-on sənət adamından ibarətdir. Hansı kanalı açırsan, həmin o beş-on müğənni, beş-on siyasətçi, beş-on sənət adamlarıdı. Axı, bu millətin nə qədər qaymaq ziyalıları var. Savadlı, dünyagörüşlü, elmli və vətənpərvər insanları var. Bəs niyə onlar axtarılıb tapılaraq efirə dəvət edilmir?! Çünki redaktorlar və prodüsserlər də özlərini çətinliyə salmaq istəmir, o tanınmış adamları asanlıqla tapır, efirə dəvət edirlər. Bir adam da nə qədər savadlı, nə qədər istedadlı olsa da, efirdə tez-tez çıxış edərkən adiləşir və onun bayağı söhbətlərinə tamaşaçı qulaq asmaq istəmir. Başqa sözlə demiş olsaq, belə siyasətçilərdən, muğənnilərdən və tanınmışlardan insanlar iyrənirlər.

### Bizim ölkə

***müharibə şəraitindən, müharibədən təzə çıxıb. 44 günlük Böyük Vətən müharibəsində Azərbaycan 200 ildə görmədiyi bir qələbəni qazanıb və onun sevincini yaşayıb. Bu sevinci bizə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, ordumuz və əsgərlərimiz yaşadıb. Müharibə həm də insanların əsəblərinə, həyatına bir gərginlik, bir stress, bir depressiya gətirib. Gözləmək olardı ki, belə bir durumda insanları maarifləndirən verilişlər daha çox efirə çıxacaq. Çünki Böyük Vətən müharibəsində doğmasını, əzizini itiriən nə qədər ailələr var. Mən şəhid ailələrini nəzərdə tuturam. İkinci Qarabağ savaşında çoxlu sayda yaralı qazilərimiz var. Bax, onlarda nikbin ovqat, gələcəyə inam və ümid hislərini daha da gücləndirməyə böyük ehtiyac duyulur.***

Amma Xəzər TV-nin "Səni axtarıram" (layihə rəhbərit Xoşqədəm Hidayətqızı) və ATV-nin "Bizimləsən" (aparıcı Zaur Baxşəliyev) verilişləri sözün həqiqi mənasında nikbinlikdən yox, pissimist və ümidsiz duyğular tamaşaçıya aşılayır. Düzdür, bu verilişlərdə bir çox insanlara maddi dəstək olub, onların müalicəsi təşkil edilibdir. Amma vallah, bu verilişlərin xeyrindən çox ziyanı var. Taleyindən küskün, həyat şəraiti rəzil olan və eyni zamanda heç kim tərəfindən yada düşməyən və dünyanın bir tərəfində qalıb dərdi ilə elləşən, adamları efirə çağırıb onların ağrı-acısı ilə oynamaq da qəhrəmanlıq deyil. Həmin verilişə ən çox baxan orta təbəqə və o cümlədən, dərdli adamlardır. O dərdli adamlar ki, həmin verilişi səbirsizliklə gözləyir, ekran qarşısında əyləşib filankəsin taleyi ilə maraqlanır. Gözləyir ki, görən bu gün nə olacaq. Bu gün də, sabah da göz yaşı, ağrı-acı və başqa dərdlər... Bizim kənddə bir Sübhan kişi vardı. "Bizimləsən" verilişini həmişə səbirsizliklə gözləyib. Hər verilişdə də talesiz insanlar üçün ağlayıb. O qədər ağlayıb, ağlayıb ki, axırda da rəhmətə gedib.

### ...Heç uzağa getməyək

***Bizim evdə də həyat yoldaşım hər iki verilişə böyük maraqla baxır. Amma həmişə də göz yaşları içində. Deyirəm ki, ay bala, öz dərdin özünə bəs deyil?! Vallah, axırda sən öləcəksən, mən də gedib yapışacam Xoşqədəm Hidayətqızının yaxasından. Heç Xoşqədəm xanım kiməsə yalvarmır ki, oturub onun verilişinə baxsın və dəsmal götürüb ağlasın. Amma bu, o demək deyil ki, bu cür verilişlər efirdə çoxluq təşkil etməlidir. Bu gün insanların ağlamağa yox, stresdən, depresdən çıxmağa daha böyük ehtiyacı var. Çünki müharibənin travması, eləcə də pandemiyanın insanlar arasında yaratdığı stress çoxlarını öz ağuşuna alıb. Bax, həmin adamları nikbin verilişlərlə, sabaha olan ümidlə bu çətin vəziyyətdən çıxarmaq olar. Kütlənin səviyyəsinə yox, ziyalının səviyyəsinə qaldırmaq lazımdır tamaşaçını. Bunu isə televiziyalar etməlidir.***

### Müxtəlif sosial şəbəkələrdə,

Ermənistan sərhədindəki vəziyyətlə bağlı yalanlar, dezinformasiyalar yayılır. Bu feyk xəbərlər ölkəni başına götürüb. Çox təəssüf ki, TV-lər bu məsələdə başının altına yastıq qoyub yatır və insanları maarifləndirmir. Yeganə Real TV-dir ki, bu məsələni gündəmdə saxlayır və Mirşahin özü Ermənistanla sərhədə gedib ordakı əsl həqiqətləri tamaşaçı auditoriyasına çatdırır. Bəs bunu Az.TV niyə etmir? Ümumiyyətlə, ölkədə informasiya qıtlığı olduğu vaxtda belə Mirşahin həm ANS-də olanda, həm də Real TV-də bu boşluğu aradan qaldırıb, əsl həqiqəti Azərbaycan tamaşaçısına çatdırıb. Deməli, sosial şəbəkələr ağzına nə gəldi yayacaq, camaatı çaşdıracaq, TV-lər də durub buna baxacaq. Ancaq nə yaxşı ki, Mirşahin kimi peşəkar televiziyaçılar var və əsl həqiqəti Azərbaycana çatdırır.

### Bu gün özəl kanallar elə bir gündədir ki,

qarabağlıların sözü olmasın bir qoca arvad lazımdır ki, onu ağı deyib ağlasın. Yenə əvvəllər Xəzər TV-nin "Xəbərlər" proqramı bir qədər maraqlı idi. Amma indi bu proqram və digər verilişlər də bəsit vəziyyətdədir. Fəlakətin verilişi ilə guya "inqilab" ediblər. Elə Fəlakətə də Fəlakət kimi adamlar baxırlar. Nə başınızı ağrıdım. Ümumiyyətlə, televiziyada Sovet dövründə bir proqram redaksiyası var idi. Yəni burda bütün verilişlər tənzimlənirdi.

Bir məsələni qabardıb o biri məsələ unudulmurdu. Bu gün isə belə bir sistem yoxdur və kimin kefi necə istəyir, eləcə də verilişləri sistemləşdirir. Vətənpərvərliklə, maarifçiliklə, dövlətçiliklə bağlı verilişlər çox azdır. Bu məsələlərə önəm verilməlidir.

**Ki, tamaşaçılar istədiyi verilişə baxa bilsin. Yoxsa özəl kanallar qucağını ancaq "manıslara" açıb. "Manıslarlasa" heç də uzağa getmək mümkün deyil. Yəni televiziya kanalları köhnə, bəsit, reytinq gətirən layihələrdən əl çəkməli, daha müasir, daha real layihələrə üstünlük verməlidir. Onsuz da bizim tamaşaçıların zövqü korlanıb. O zövqü isə yeni düşüncə, yeni layihələr əsasında formalaşdırmaq olar.**

**Faiq QİSMƏTOĞLU**

### Türkiyə ordusu İraqda terrorçuları məhv etdi

**Türk Silahlı Qüvvələri ilə MİT İraqın şimalında - Qara bölgəsində 5 PKK terrorçusunu zərərsizləşdirib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, terrorçular Hərbi Hava Qüvvələrinin əməliyyatı nəticəsində məhv edilib.

### Dünyada ötən sutka koronavirusa 469 mindən çox yoluxma qeydə alınıb

**Dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 469 mindən çox artıb.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının gündəlik hesabatında deyilir.

Məlumata əsasən, ötən sutka ərzində 469 996 nəfər yeni koronavirusa yoluxub, 11 311 nəfər isə dünyasını dəyişib. Yoluxanların ümumi sayı 169 597 415, ölənlərin isə 3 530 582 nəfərə çatıb.

Təsdiqlənmiş yoluxma hadisələrinin əksəriyyəti ABŞ-da qeydə alınıb - 32 916 501 nəfər.

Siyahıda daha sonra Hindistan (27 894 800), Braziliya (16 391 930), Fransa (5 557 673), Rusiya (5 063 442), Böyük Britaniya (4 480 949), İtaliya (4 213 055), Argentina (3 702 422), İspaniya (3 663 176) və Almaniya (3 679 148) gəlir.

**Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının hesabatı yalnız rəsmi göstəricilər əsasında hazırlanır.**

# Alban məbədi

**Alban məbədi Azərbaycanın qərb qapısı sayılan Qazax rayonunun Daş Salahlı kəndində Avey dağının cənub zirvəsinin ən uca nöqtəsində, 922 metr hündürlükdə yerləşir. V-VII əsrə aid edilir.**

Məbəd əvvəllər aya sitayiş etmiş bütpərəst türk tərəfindən tikilmiş və Ay məbədi adlandırılmışdır. Bunu arxeoloji qazıntılar zamanı tapılan küplərin üzərində əks edilmiş ay və aya sitayiş edən insan şəkillərinə əsasən söyləmək mümkündür.Lakin sonralar Savirlər xiristianlığı qəbul etmişlər.Ermənilər (haylar) isə keçmişdə onu özünükləşdirməyə cəhd göstərmiş və bu məbədin adını Surp Sarkis kimi qeyd etmişlər.

### Məbəd kompleksi

***iki tikilidən - birincisi şimal-cənub istiqamətində yerləşən düzbucaq formalı böyük əsas tikili və ikinci kiçik yardımçı tikilidən ibarətdir. Əsas tikili iki pilləli özül üzərində, qədim ay məbədinin üzərində tikilmişdir. Daha doğrusu, bütpərəst məbədi xiristianlığın qəbulu ilə dövrün dini tələblərinə uyğun olaraq sökülmüş, onun yerində xiristian məbədi inşa edilmişdir. Məbədin şimal-şərq tərəfində qədim tikiliyə aid altı cərgə hörgü daşının saxlanması da deyilən fikirləri təsdiq edir. Çaxmaqlaşmış əhəng daşından olan həmin hissə sonrakı tikilmiş binanın hörgü daşlarından fərqlənir.***

Binanın içi aralıq qapısı ilə iki otağa ayrılmışdır. Böyük otağın ölçüsü 4,5x3,5, arxasındakı kiçik otağın ölçüsü isə 3,5x2,5 m-dir. Tikilinin qədim divarları arası xırda daş parçaları və palçıqla doldurularaq hər iki üzdə iri daşlarla hörülmüşdür. Birinci iri otağın şərq divarının hər iki yanında "T" formalı sütun olan tağ formalı absida yerləşir. Bu cür sütunlar ara qapının cənuba, iri otağın içinə baxan üzünün və cənuba açılan giriş qapısının hər iki yanında da vardır.

***Binanın bərpası zamanı düzəldilmiş sütunlar (qapının yanlarındakı) kobudluğu ilə digərlərindən seçilir. Otağın tavanı gümbəzvaridir. Ortadakı dairəvi deşik örtükləri silindirvari barabanla tamamlanır. Üstü alçaq, konusvari düzəldilmiş barabanın hündürlüyü 2m, diametri 2m-dir. Barabanın konusvari örtüklə birləşən yuxarı hissəsini qoşa, paralel, qabarıq kəmər əhatə etmişdir. Barabanda bir-birindən müəyyən məsafədə yerləşən 4 ədəd uzunsov, kiçik pəncərə açılmışdır. Baraban və konusvarı örtüyün üstünə nazik daş piltələr düzülmüşdür. Otağın şərq divarında bir dar pəncərə açılmışdır. Qərb divarında qədimdə pəncərənin olub-olmadığını deməkdə mütəxəssislər çətinlik çəkirlər.***

Lakin, məbədin son bərpası zamanı bu divarda həm çöldə və həm də daxildə formasına görə qarşı divardakı pəncərədən tam fərqlənən yeni pəncərə açılmışdır. Ümumiyyətlə, aparılan müşahidələrə əsasən məbədin ayrıayrı vaxtlarda üç dəfə bərpa olunduğunu müəyyənləşdirmək mümkün olmuşdur.

### Bu bərpa izləri

tikilinin qərb divarının cənub hissəsində və cənub divarının müəyyən hissəsində qapı ətrafında qabarıq nəzərə çarpır. Aralıq qapının sağ tərəfində xaç işarələri, sol qərb tərəfdə isə böyük mətndən ibarət yazı olmuşdur. Hazırda qırılıb oxunmaz hala salınmış bu mətnin bir hissəsi son bərpa zamanı qərb divarın şimala uzanan hörgü daşları altında qalmışdır.

Məbədin arxa hissəsindəki kiçik otağın şərq tərəfində tağ formalı absida-mehrab yerləşmişdi. Mehrabın tavanının ortasında dairənin içində bərabər tərəfli xaç işarə qazılmışdır. Hər iki tərəfdən dairəni cızma xətlə çəkilmiş nəbati təsvir əhatə etmişdir. Mehrabın yan divarlarında şam yandırmaq üçün taxçalar qazılmışdır. Arxa divarda ensiz pəncərə vardır.

Bu cür ikinci pəncərə qarşıdakı qərb divarda da vardı. Kənd sakinlərindən görənlərin dediyinə görə, mehrabın qarşısında gövdəsi bəzəkli nəzirgah daşı yerləşirmiş. Sonradan bu daş məhv edilmişdir. Otağın tavanı tağvaridir. Tikintinin döşəməsi dördkünc əhəng daşı piltələri ilə örtülmüşdür. Birinci otağın damı qoşaçatılı, arxa otağınkı düz, şimala tərəf bir qədər mailidir. Örtük vastəsi kimi iri ölçülü, müstəvi formalı kirəmit formasında düzəldilmiş əhəngdaşı laylarından istifadə olunmuşdur.

Otağın qərb divarındakı pəncərənin hər iki yanında zərif kəsmə naxışa təsadüf olunmuşdur. Pəncərənin üstü yanlarda düz, ortada qövsvari batıq xəttlərdən ibarət naxışa malikdir. Binanin "karniz"ini 3 cərgə batıq xətdən ibarət naxış əhatə etmişdir. Giriş qapısının üstünü qırmızı tuf daşı bağlayır. Bu daşın ətrafı nəfis naxışla işlənmişdir.

Məbəd kompleksinə daxil olan ikinci tikinti yerli əhəng daşından, bir cərgə yastı daşlardan ibarət özül üzərində inşa edilmişdir. Əsas binanın şimal-şərq hissəsində yerləşən bu tikintinin qapısı qərbədir.

***Quruluşca uzunsov formalı tikintinin arxa divarında pəncərə əvəzi dairəvi deşik açılmışdır. Tavanı tağvari, örtüyü qoşa çatılıdır. Uzunluğu 3, eni 2, hündürlüyü 2.5m-dir. Buradakı qapüstü qırmızı tuf daşındakı kitabə də sındırılıb məhv edilmişdir. Ətrafa səpələnmiş daş parçaları arasında qapüstü kitabənin qırıqlarından başqa ikinci bir kitabə də tapılmışdır və hörgüdə tikinti daşı kimi istifadə olunmuşdur. Ümumiyyətlə, göstərilən kiçik tikintidən nə məqsədlə istifadə olunduğunu dəqiq demək çətindir.***

### Arxeoloji qazıntılar zamanı

məbədin yaxınlığında qəbirlər və qəbirüstü daşlar aşkar edilmişdir. Onların üstü çox iri ölçülü yaxşı hamarlanmış və naxışlanmış əhəng daşları ilə örtülmüşdür. Bu qəbir daşlarının heç birində "xaç" işarəsi yoxdur. Lakin, birinin üzərində emblem kimi albanlara məxsus "lotos gülü" və yuxarı künclərində 8 hissəyə ayrılmış rozetka qazılmışdır. Qəbirüstü daşlarda insan təsvirlərinin verilməsi bütpərəstliklə əlaqədar olub, buradakı qəbirlərin vaxtilə hazırkı xristian məbədinin yerində mövcud olmuş bütpərəst Alban məbədinə aid olduğunu ehtimal etməyə imkan verir. Ümumiyyətlə, qəbir daşlarında nə xaç işarəsi, nə də yazıya təsadüf olunmamışdır. Qazıntının nəticəsində məbədin qarşı tərəfi xeyli dərinə düşdüyündən binaya çıxmaq çətinləşmiş, bu çətinliyi aradan qaldırmaq üçün məbədin qapısının qabağında 3 pillədən ibarət pilləkən düzəldilmişdir. Bu daşlardan ikincisi, iri əhəng daşı layı yerindən qaldırılarkən onun məbədin son bərpasına qədər məbədin qapısının üstündə yerləşmiş, üstündə alban xaçı həkk olunmuş, lakin, təmir işləri vaxtı çıxarılıb atıldığı aydın olmuşdur. Ümumiyyətlə, məbəd ətrafında yer üstündən və qazıntıdan az miqdarda axeoloji material əldə edilmişdir. Bunlar əsasən antik və ilk orta əsrlər, tək-tək orta əsrlərə aid qab qırıqları, 1 ədəd XIII əsrə aid "Qaan-al-adilə" məxsus mis pul (pulun təyinatını tarix elmləri doktoru M.Seyfəddini vermişdir), bir neçə memarlıq elementi, bəzəkli daş parçaları tapılmışdır. Qab qırıqları küp, küpə, su qabı, xeyrə, piyalə və şirli kasaya aiddir. Tapıntılar arasında üzəri qara, qırmızı, qəhvəyi, tünd-yaşıl rənglə örtülmüş kirəmit qırıqlarının olması da maraq doğurur. Su mənbəyi məbədin qarşısından cənuba enən cığırın sağ tərəfində qayada çapılmış iri hovuzdur. Məbədin içinin quruluşu, onun oxşar abidələrlə müqayisəsi buradan əldə edilmiş arxeoloji materialların təhlili onun VI əsrdə inşa olunduğunu deməyə əsas verir.

**Avey dağındakı qədim xristian məbədi qədim Alban torpağına, xristian alban əhalisinə xidmət etmiş abidədir. Hər zaman olduğu kimi xristianlıq dövründə də Alban kəndlərinin sakinləri yalnız xristian albanlardan, müsəlmanlığın qəbulundan sonra isə müsəlman alban-azərbaycanlılardan ibarət olmuşdur.**

**Xeyransa Qocayeva,**
**"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun elmi işçisi**

### Səyyad Aranın yeni kitabı

***Bu günlərdə tanınmış yazıçı Səyyad Aranın Moskvada " Doxod Qeybullı"(Qeybullanın gəliri) hekayələr kitabı çap olunub. Hekayələri rus dilinə tanınmış təcüməçi Püstə Axundova çevirib.***

***Müxtəlif illərdə yazılmış hekayələr günümüzün reallığından bəhs edir. Sovet imperiyasının çöküşündən sonra Azərbaycan insanın keçirdiyi hiss və həyəcanlar, yenilik və müstəqillik ritmlərinin oyatdığı sevinc və qürur düyğuları hekayələrdə təbii şəkildə üzə çıxır. Müasir həyatın nəbzi aydın, açıq hiss olunur. Əsərlərin dili, təkiyyəsi müasir oxucunu 20-ci əsrin sonunda baş verən hadisələrin iştirakçısına çevirir.***

# Səfər Alışarlı yaradıcılığında insan və cəmiyyət dilemması

**Nasir, jurnalist, tərcüməçi Səfər Alışarlının yaradıcılığına həsr etdiyimiz "Səfər Alışarlının özünü axtaran qəhrəmanları" (525-ci qəzet, 30 dekabr 2020-ci il) məqaləmizdə yazıçının "Maestro" romanı, "Gavur", "Qız və maneken" povestləri haqqında söhbət açmışdıq. Bu məqalədə isə Səfər Alışarlının yaradıcılığı haqqında araşdırmamızı davam etdirərək yazıçının hekayələri, esseləri və "Göz-gözə" povesti ilə bağlı fikirlərimizi bölüşəcəyik.**

Hekayə janrı Səfər Alışarlı yaradıcılığının əsas sütunudur desək yanılmarıq. Səfər Alışarlının "Kasıb", "Dağlar bizə baxır", "Zəng", "İnşallah yaxşı olar", "Xal", "Qasım", "Avqust", "Format", "Yoldaş", "Sən heç nə bilmirdin", "Hamam", "Qar üstündə", "Sentyabr sinsitməsi", "Sirli və təəssüratlı", "Şaumyan divarı", "Quraq fəsillər", "Saat", "Qırmızı qovluq", "Yay vidalaşmaları", "Ciddilik dərsləri", "Cin yuvası", "Cığırda", "Otluqda qovun tağı", "Zavod həyəti", "Limb və Alidada", "İşıq", "İkinci respublikanın generalı", "Döyüşçülər və pinəçilər", "Qəzet və tank", "Şirin işlər", "Qərargah rəisi", "Üç xanım" hekayələrinə nəzər saldıqda yazıçının müxtəlif illərdə qələm aldığı bu əsərlərdə onun nasir kimi öz üslubunu yaratdığınının şahidi oluruq.

Səfər Alışarlının ilk hekayələrindən olan "Qasım" hekayəsinin qəhrəmanları on iki ildir övlad üzünə həsrət qalan Qasım və Şəkərdir. Qasım öz içindəki ağrını, nakamlığı, natamamlığı içki ilə söndürür, hamının gözündə daim kefli olan, dünyanı vecinə almayan bir insan kimi görünür. Həyat yoldaşı Şəkər ona dəfələrlə boşanmasını, başqa qadınla evlənib övlad sahibi olmasını desə də Qasım bunu etmir. Şəkər də eyni acıyla qovrulsa da, ana ola bilməməyin həm dərdini, həm də xəcalətini yaşasa da Qasımı sona qədər anlaya bilmir. O, nəhayət evdən birdəfəlik yığışıb getməklə Qasıma xoşbəxtliyin açarını verdiyini, fədakarlıq etdiyini düşünür. "Hamı öz yerində idi, bircə Şəkərdən savayı. Ovurdlarını şişirdə-şişirdə Qasım çalırdı, özü də ağlayırdı. Yaş onun gözlərindən axıb gah şişən, gah da batan ovurdlarından aşağı sızır, nazik, uzunsov çənəsində birləşərək sinəsinə damcılayırdı. O axşam Qasımın həyətində nağara səslənmədi, uşaqlar da oynaqlamadılar. Eləcə, qara zurnanın naləsi sərin havada yayıldı kəndin üstünə. Eşidənlər də dedilər ki, Qasım yenə dəmdir, yenə vurub Qasım". Lakin Şəkər anlamır ki, Qasım üçün ailə, sevgi övladın olub-olmaması ilə ölçülmür. Qasımın Şəkəri necə bir məhəbbətlə sevdiyini kimsə anlamır. Qasımın sevgisi sadə, təbii və sakitdir, heç bir pafosa, qeyri-adi təsdiqə ehtiyacı olmayan əsl kişi məhəbbətidir. Əslində Şəkərin özü də belə bir dərin sevgiylə seviləcəyinə inanmır. Qasımı ağladan övlad yanğısı deyil, sevdiyinin onun təmənnasız, heç bir maddi dayağa ehtiyacı olmayan sevgisini anlamamasıdır.

### "Sentyabr sinsitməsi"

***hekayəsində kənddən şəhərə gəlib texnikumda təhsil alan gəncin böyük şəhər təəssüratları öz əksini tapıb. Yataqxanada qalmaq üçün yer axtaran yeniyetmə əslində onun üçün yeni olan bir həyatda yer tapmağa çalışır. Bu şəhər ona arzularının gerçəkləşəcəyi bir məkan kimi görünür. Hekayədə bütün obrazların adı var, lakin müəllif əsas qəhrəmanı adsız yaradaraq onun timsalında həyatda özünü və öz yerini axtaran gəncləri simvollaşdırmışdır. Nəhayət gəncə əlçatmaz görünən texnikum və yataqxana məsələsi həllini tapandan sonra qəflətən o, uğrunda zəhmət çəkdiyi hər şeydən əl çəkir: "Onda çox dumanlı şəkildə mənə elə gəldi ki, mən şəhəri görəndən, ondan bir qədər doyandan sonra qayıdıb getməliydim. Orada məni göyüzünün özü boyda genişliklər, quru şəhər get-gəlindən, qondarma rəsmiyyətlərdən, "Yer yoxdur" lövhəciklərinin yalançı qadağalarından fərqli olaraq lazımlı və faydalı heç nəyini gizlətməyən adamlar, dağlar, düzənlər, atlar gözləyir". Hekayədə izlənən əsas ideya məhz budur: insan mühitin diqtə etdiklərini deyil, öz qəlbinin, ruhunun ona söylədiklərini əsas götürərək həyatını qurmalıdır.***

"Ciddilik dərsləri" hekayəsinin qəhrəmanı mühəndis Həsənov səbrli, hövsələli olması ilə qocalması arasında bir qanunauyğunluq görərək gəncliyi üçün darıxır. Kənardan "qıflaflı adam" kimi görünən baş qəhrəman daxilində səmimi, mehriban bir insan, isti bir ürək gəzdirir. O, insanların duyğularında səmimi olmasını, mənasız və xoşbəxtlik gətirməyən obrazlara bürünməməsini istəyir. Növbəti istehsalat müşavirəsindən - "ciddilik dərslərindən" sonra Xumar xanımla küçədə gəzərkən "yüngül yay kostyumlu, mavi qalstuklu" mühəndis Həsənov gənc anaya yemək yeməyən uşağı şirniklənirmək üçün ona südlü aş yedirtməsinə imkan verir və bu səhnə Xumar xanımın "ciddilik dünyası"na ciddi zərbə vurur: "Xumar xanım tünd eynəyinin arxasından irəli baxa-baxa xəfifcə gülümsünürdü, hərdən ağzını yüngülcə əyib üzünü yana çevirməklə sanki mənşəyi və səbəbi özünə də tam məlum olmayan təbəssümünü Həsənovdan gizlətməyə çalışırdı. İndi elə bil onun təkcə fikirlərinin deyil, uca dabanlarının tıqqıltısı üzərində xəfif dalğa kimi ləpələnən yerişinin də ahəngi pozulmuşdu. Elə bil başqaları ilə münasibətlərə küçənin ortasında özgə əlindən aş yemək qədər gözlənilməz bir müdaxilənin intinktiv sadəliyi onilliklər boyu onun həyatında formaşalmış bütün ölçü və standartları vurub dağıtmışdı və indi nə qədər çalışırdısa, onları bir yerə toplayıb əvvəlki nizamında bərpa edə bilmirdi." Səfər Alışarlı bu qeyri-adi, qəfil səhnə ilə oxucunu həm təəcübləndirir, həm də öz ciddilik pərdəsi altında gizlətdiyi sadə insan səmimiyyəti haqqında düşünməyə vadar edir.



### Səfər Alışarlının hekayələrinin

***obrazlar qalereyasına və hadisələrin qurulma üsuluna nəzər saldıqda aydın olur ki, yazıçı seçdiyi qəhrəmanın daxilindəki dünya ilə ətraf dünya arasındakı təzadı, zaman və insan, cəmiyyət və fərd dilemmalarını önə çəkir. Yazıçının hekayələrinin əsas qəhrəmanlarının zahiri görünüşləri qabarıq, seçilən deyil, hərəkətlərində qeyri-adilik, pafos, iddia yoxdur. Lakin yazıçının ustalığı məhz bu adilik, carilik pərdəsi altında, zahirən üsyan etməyən, sakit obrazlar vasitəsilə öz içlərində yaşayan, yaşadıqları duyğuların anlaşılmamasından əzab çəkən insanları canlandıra bilməsindədir.***

"Göz -gözə" povesti. Səfər Alışarlı "Alatoran" jurnalının 2008-ci ildə işıq üzü görən 12-ci nömrəsində çap olunan "Göz-gözə" adlı əsərini 3 hissəli pyes-povest adlandırır. Povestin qəhrəmanı aktyor Eldar faciə aktyoru olsa da, uzun illər sevgilisi Nəzakət xanımın Şirin rolunu ifa etdiyi "Xosrov və Şirin" tamaşasında Şapur rolunun ifaçısı olsa da indi kiçik bir uşaq teatrında Şaxta baba obrazını canlandırır. İllər sonra sevdiyi və ayrıldığı Nəzakət xanım vəzifəli həyat yoldaşı və oğlu ilə yeni il gecəsi Eldarın ifası ilə uşaqların sevimlisinə çevrilən Şaxta babanın yeni il tamaşasına baxmaq üçün gələndə o səhnəyə çıxmaqdan imtina edir. O bilir ki, səhnəyə çıxsa, o səhnədən Nəzakət xanımı görsə özünə qurduğu bu dünya da dağılacaq: "Mən çıxaram, sonra da bütün ömrüm boyu teatra nifrət eləyərəm, mən bunu istəmirəm. Bütün teatrlar insanların ruhundakı incə, zərif cizgiləri qorumaq, möhkəmləndirmək üçündür. O bizim özümüzdə olmayanda, başqaları bizə inanarmı?" AMEA-nın müxbir üzvü, prof.Tehran Əlişanoğlu "Ən yeni nəsrimizdə Azərbaycan obrazı"(Tənqid.net, Bakı, Qanun, 2011, səh. 51) məqaləsində yazır: "Amma deyək, Səfər Alışarlının "Göz-gözə" povestinin qəhrəmanı həqiqi sənətçi obrazında yenə də israr etməkdədir; həyat hər şeyi, bütün şanslarını əlindən almışsa da belə; bir zaman səhnədə tərəf müqabili olmuş, indi isə Sənət idealını gerçəklərə dəyişmiş aktrisa onun qarşısına rifaha barınmış məmur qismində çıxır. Dekorasiyalar dəyişmiş, bəs yeni həyatı oynaya bilənlər varmıdır?" Eldar "Şapur"dan "Şaxta baba"ya çevrildiyi gündən sonra nə qədər sınsa da içində sənətə sevgini qoruya bilib və bu gün onu dram aktyorundan komik qəhrəmana, nağıl obrazına çevirən Keçmişlə - Nəzakət xanımla görüşməkdən imtina etməklə əslində ürəyində qalmış sonuncu sənət eşqi damlalarını qorumağa çalışır. Çünki Nəzakətin "qəhrəman olmaq istəmirəm" deyərək özündən imtina etdiyi dünyada Eldarın Sənətə inanması və yaşaması mümkün deyil.

Esselər. Səfər Alışarlı yaradıcılığı müxtəlif mövzulu esselərlə də zəngindir. Onun Əziz Şərifə ithaf olunmuş "Mirzə Cəlil ətirli adam" (2015), Sona Vəliyevanın yaradıcılığından danışan "Poeziya yalnız ruhun oxuduğu nəğmədir" (2016), estetik məqamlara toxunan "Başqa estetika, başqa mədəniyyət" (2017), Adilə Nəzərin poeziyasından söhbət açan "Gözəl yaradılmışların vəsfi" (2019), Mirzə Cəlil Məmmədquluzadəyə həsr edilən "Mirzə Cəlili redaktə etmək olmaz!" (2019), yaradıcılıq axtarışlarından bəhs edən "İlk fraza" (2020) esseləri ədəbi mühit və oxucular tərəfindən maraqla qarşılanmışdır.

### "Mirzə Cəlili redaktə etmək olmaz!"

***essesində Səfər Alışarlı yalnız Mirzə Cəlil Məmmədquluzadənin əsərlərinin timsalında ümumiyyətlə bütün ədəbi mətnlərin ilkinliyinin qorunması, olduğu kimi xalqa təqdim edilməsi məsələsini qabardaraq yazır: "Nəyə görə bunlara toxunmaq, yəni Mirzə Cəlili redaktə etmək olmaz? Çünki bu XIX-XX-XXI əsr Azərbaycan ədəbiyyatında yeganə nəhəngdir ki, müstəmləkə zülmü altında inləyən kobud, köntöy, heç bir mədəni çərçivə tanımayan kölə toplumun real həyat həqiqətlərini bədii təsvir vasitələri ilə ifadə edib, onu böyük ədəbiyyatın halalca malına çevirə bilmişdi. Bunu yalnız dövrünə görə savadlı, fitrətinə görə son dərəcə istedadlı və VƏTƏNPƏRVƏR bir adam eləyə bilərdi. "Molla Nəsrəddin" jurnalı nəşr olunanda da hökumət, senzura, zəngin, kasıb, molla, şilləvuran, üzəduran, polis-molis varıydı bu məmləkətdə. O təpkilərin bircəciyini bizə göstərsəydilər, Allah bilir, nə edərdik!Mirzə Cəlil böyük yazıçıdır, onu heç bir regional, heç bir milli çərçivə ilə məhdudlaşdırmaq olmaz. Onun bədii yaradıcılığı böyük ümumbəşəri dəyərlərin daşıcısıdır."***

Səfər Alışarlının nəsrində, esselərində yazıçının dünyagörüşü, geniş maraq dairəsi, qələmə aldığı mövzuya tədqiqatçı şövqü ilə yanaşması oxucunun diqqətini cəlb edir, yaratdığı obrazlar rəngarəngliyi və dolğunluğu ilə seçilir. Səfər Alışarlı yaradıcılığı müstəqillik dövrü Azərbaycan ədəbiyyatında klassik, realist nəsr ənənələrinin müasir zamanın tələblərinə uyğun şəkildə yaşadılması baxımından böyük önəm kəsb edir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı:


***Səfər Alışarlı. "Avqust" roman və povestlər toplusu; Bakı, "Qızıl şərq" ASC, 2004***

***Səfər Alışarlı. Qız və maneken (povest və hekayələr).Bakı, Mütərcim, 2019.***

***Səfər Alışarlı. Gözəl yaradılmışların vəsfi// "Ədəbiyyat" qəzeti.- 2019.- 18 may.- S.9.***

***Səfər Alışarlı. Poeziya yalnız ruhun oxuduğu nəğmədir//"Ədəbiyyat" qəzeti.- 2016.- 2 aprel.- S.19.***

***Səfər Alışarlı. Quraq fəsillər (hekayələr). Bakı, Qanun, 2018***

***Səfər Alışarlı. İkinci respublikanın generalı. Bakı,Qanun, 2020.***

***Səfər Alışarlı.Zəng (hekayələr).Bakı, Yazıçı, 1987***

***Səfər Alışarlı.Sən heç nə bilmirdin (povest və hekayələr). Bakı, Gənclik, 1991***

***Səfər Alışarlı. Göz-gözə.//Alatoran jurnalı, №12. Bakı, Qanun, 2008, səh. 20-41.***

***Tehran Əlişanoğlu. Ən yeni nəsrimizdə Azərbaycan obrazı. Tənqid.net, №8. Bakı, Qanun, 2011.səh. 46-51.***



**Elnarə Qaragözova,**
**Fil.f.d. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi**



**Zemfira Məhərrəmli**
**yazıçı-publisist**


# Qarabağ yenə gülüstan olacaq!

**Elxan Zal Qaraxanlı imzası ədəbi-ictimaiyyətə yaxşı tanışdır. O, rəngarəng əsərləri ilə bədii dilin, ən başlıcası isə türkçülüyün gözəl bilicisi olduğunu, zəmanənin ab-havasına kökləndiyini təsdiqləyib. Millət, Vətən sevgisi, vətəndaşlıq qayəsi şairin döyüşkən lirikasının əsas məziyyətləridir. 90-cı illərin əvvəllərindən torpaqlarımızda gedən müharibə ilə bağlı mövzular yaradıcılığında üstünlük təşkil edir. Qarabağ dərdi, yurd nisgili, ölüm-itim, qan-qada, şəhidlik, qaçqınlıq, zülm dolu çadır həyatı şairin yazdığı şeirlərin özəyini təşkil edir. Xalq təəssübü çəkən, qan yaddaşımızı silkələyən, oyadan şeirlərinin əsas qayəsi Vətəni candan artıq sevmək, el-obaya dayaq olmaq, Qarabağla bağlı inkaredilməz tarixi həqiqətləri çatdırmaqdır.**

Yüz illərin yaxasında yollar yormuşduq, namərd qonşunun xəyanətindən, sitəmindən cana doysaq da, qurtula bilmirdik. Kor rüzgar, acı səmum, yorğa yellər başımız üstündə əsirdi. Axırı yox idi. Yolun-yolağanın, arxın-bərənin səmtini itirmişdik. Kövrəlirdik, ovunurduq. Zorlular haqqı əyəndə az qala hər şeydən üz döndərmişdik. Bu hüznlü ovqat şairin "Azərbaycan simfoniyası" poemasında da öz əksini tapmışdı:

*Düşmən pəncəsinə keçdi Qarabağ.*
*Hürrün şərbətini ovuclayanda,*
*Savaş mələkləri bizə qıyanda,*
*Uduzduq, yenildik, sınmadıq ancaq...*

Elxan Zal "Şuşa həsrəti" adlı şeirində məmləkətin başına gələn bəlalara görə qəlbini didib-parçalayan narahatlığını, el-oba nisgilini dilə gətirir və igid oğulları Şuşanı və digər əzəli yurd yerlərimizi xilas etməyə çağırır:

*Tufan keçdi, qar əridi,*
*Yollarını açdı yaylaq.*
*Xan qızının türbəsinə*
*Apar məni qızıl daylaq...*
*Şaşqın Şuşa şüşələnmiş,*
*Xarıbülbül qor qoxuyur...*
*Gözü gülməz ormanların,*
*Göyün üzü ötkəm və sərt.*
*Dəfini döy, ay elbaşı,*
*Orduları yerdən dəbərt.*

Misri qılıncı od saçan yenilməz ərənlər artıq ayağa qalxıb qarı düşmənlə pəncələşir, xalqımıza qənim kəsilən yağının dərsini verirdi. Şair "Azərbaycan ordusu" adlı şeirində yazırdı:

*Azərbaycan ordusu*
*Bayrağında ay gəlir... Çök!*
*Ölümə qənşər duran*
*Basılmaz alay gəlir... Çök!*

*Ərənlər gözündə qan,*
*Nə yağma var, nə talan,*
*Ölümsüzlük axtaran,*
*İgidlər qolay gəlir... Çök!*

Şairin yaradıcılığı haqqında qələm dostlarının düşüncələri də maraq doğurur. Akademik Nizami Cəfərovun fikrincə, "Elxan Zal Qaraxanlı bizim poeziyamıza təmiz, saf türkçülük mühitindən gəldi, onun ən üstün cəhəti də o oldu ki, türklərin tarixini, mədəniyyətini, ən qədim zamanlardan bəri gələn folklorunu, dil və obrazlar sistemini öyrənib, bunu poeziyanın əsaslarına hopdura bildi... O, türkçülüyü yalnız yaradıcılığının məzmunu ilə yox, həm də mənsub olduğu etnosun ruhundan gələn ifadə texnologiyası ilə verə bilir."

Qarabağda yeni tarix yazan şanlı ordumuzun, mərd oğullarımızın Müzəffər Sərkərdəmizin iradəsi ilə mənfur düşmənə ağır zərbələr endirərək, azğınları əzəli torpaqlarımızdan qovub çıxarması, dostumuz, qardaşımız, "cəng gününün yoldaşı" Türkiyənin haqq işimizdə yanımızda olması şairin qəlbini dağa döndərirdi:

*Türkdür türkün qardaşı,*
*Cəng gününün yoldaşı,*
*Hücum deyir minbaşı,*
*Min ağızdan hay gəlir... Çök!*

Yaxud:

*Sözünü ortaya qoydu Komandan:*
*- Siz qan istədiniz, alın bu da qan,*
*Torpaq yox, mərmilər peşkəşdir sizə.*
*Tanrı müjdəçisi böyük ərənlər,*
*Düşmən tapdağında qoymaz torpağı.*

Ölümlə ölümsüzlüyün, bəlkə də, sonuncu savaşıydı 44 günlük Vətən müharibəmiz. Ruhumuz atlanmışdı. Düşmənin üzərinə vəhdətimiz, cürətimiz, qeyrətimiz yürüyürdü. Göydə şimşəktək çaxırdı cəsarətimiz:

*Yürü, qardaşım yürü,*
*Ərin yorulmaz dizi.*
*Əbədi bir çağırış,*
*Cəngə səsləyir bizi.*
*Savaş var, ölməz savaş,*
*Yuxuda gör dincliyi.*
*Savaşın bitən yerdə,*
*Başlayır köləliyin.*

Yaxud:

*El bağrından ər qopardır,*
*Bayraqlarınləngəri.*
*Sənə hücum əmri gəlib,*
*Sıraya dur, cəng əri.*

Artıq dözümü dincə qoymuş, qorxunu danmış, inada güc vermişdik. "Qılınc qından çıxanda savaş başlar" deyiblər. Savaş alın yazımız idi. Koroğlunun nərəsinə, Misri qılıncına, ərənlərin polad biləyinə güvənirdi Vətən. Şairin fikrincə:

*Kim ki, dayanıbdır türkün qəsdinə,*
*Bir gün "Misri" qılıncı gəlir üstünə.*

Tanınmış ədəbi tənqidçi Əsəd Cahangirin fikrincə isə "Bu illər ərzində şeirdə meydana çıxan ən maraqlı və orijinal hadisə Elxan Zal Qaraxanlının timsalında milli-tarixi simvolizmin şeirdə özünü sistemli ifadəsini tapması oldu."

Yazıçı-dramaturq Elçin Hüseynbəyli yazır: "Elxan Zal o şairlərdəndir ki, onun misralarını seçmək lazım deyil, çünki hər misrada, hər bənddə bir məna var... O, xalqımızın ruhunu, qədimiliyin havasını duya bilir. Həmkarım həm də dünyanı bütöv qavraya bilən yazarlarımızdandır... Elxan geniş düşünməyi bacarır. Onun misralarındakı ahəng bir nəğmədir." Şairin şeirləri də bu fikri təsdiq edir:

*Cəngin zamanı gəldi,*
*Tonqalı yandır!... daram!*
*Daram, daram, dam-daram.*
*Yuxlamış ruhumuzu,*
*Titrət, oyandır... daram!*
*Cəng səsi nurdan incə,*
*Ölüm türkə əyləncə,*
*Dözümü qoyub dincə,*
*Qorxunu dandır... daram!*

Göründüyü kimi, şair bu qəbildən olan şeirlərində ənənəvi təsir vasitələrindən, köhnə qafiyə vərdişlərindən yan keçir. Bu bədii nümunələrdə daha qabarıq görünən sözün biçimi və deyim tərzidir. Arxaik sözlər müasirliklə, yeni deyimlərlə yanaşı işlənir və fikrin daha aydın, cilvəli izharına yardımçı olur. Zəngin məlumat sahibi olan şair qədimiliyin, böyük türk dünyasına, türkün qızıl dövrünə məhəbbət aşılayan hər nəcib əməlin poetik mənzərəsini çəkir. Onun şeirlərinin dərinliyinə, fəlsəfi baxışına varmaqdan ötrü türk dünyasının tarixi, söz sənəti, folkloru, qədim miflər, qızılbaş havaları, şaman rəvayətləri ilə bağlı bilgilərə malik olmalısan.

Torpaq şəhid qanıyla yoğrulanda Vətən olur. Şairin təbirincə desək, bu, hətta "bələklərdə bəbəklərin belə gözlədiyi" müqəddəs savaş idi. Şair tarixini qanıyla yazan oğulların zəfər çalacağından dolayı ümidini, "öc atlısı gələr günün birində" inamını itirmir:

*Ərənlərin fəth atında,*
*arzuların qanadında,*
*apar bizi son savaşa,*
*apar bizi, apar, Ata...*

Dünyaya səs salan, Zəfər qazandığımız Vətən müharibəsinin davam etdiyi günlərdə igid əsgər və zabitlərimiz öz qızıl qanları ilə Qarabağda qəhrəmanlıq dastanı yazdılar. Kimisi şəhidlik mərtəbəsinə yüksəldi, kimisi qazilik. Ən başlıcası isə əzəli torpaqlarımız erməni cəlladların işğalından qurtulmuşdu. Qarabağ fatehlərinin şərəfinə indi Zəfər marşı çalınır.

Əsl sahiblərinin qayıdışından, doğma insanların hənirtisindən yurd yerlərimiz azad nəfəs alır, dirçəlir. Bu böyük qalibiyyətin yaratdığı nəhayətsiz sevincin könül açan əks-sədası Elxan Zal Qaraxanlının da düşüncələrində səngimməyən mübarizə ruhunu qanadlandırır:

*İşğalın tifağı qalacaq xaraba,*
*Küllüyün altından qalxacaq Qarabağ!*
*Başlayır yeni çağ,*
*Bu yerlər yenə də gülüstan olacaq!*

# Deyirlər...

**Şayiələrə həmişə olub, var və olacaq da. Kimisi inanır, kimisi isə inanmır.**

Bob Marleyin ölüm səbəbi ayaq barmağında yaranan melanoma yəni xal xərçəngidir. Melanomanın yaranmasına səbəb isə futbol oyunu zamanı ehtiyatsız atılan zərbə olubAncaq.. Deyirlər, Mərkəzi Kəşfiyyat İdarəsi musiqiçini "aradan qaldırmaq" üçün ona daxilində zəhərlənmiş bir sim olan ayaqqabı hədiyyə etmişdi.

Deyirlər, Joanne Rowling yazıçı deyil, aktrisadır. "Harry Potter" əsərini istedadlı bir qrup yazıçı yazıb. Publika qarşısında isə xüsusi təyin edilmiş aktrisa çıxış edir. Boşanmış və böyük uğur əldə etmiş qadın yazıçı hekayəsi isə insanları ilhamlandırmaq üçün yazılıb.

Deyirlər, Jim Morrison ölməyib. O, adını Mr. Mojo Risin adına dəyişmiş və Seychelles adasına köçüb, çünki rok-ikonanın ölümü müəmma olaraq qalmıb. Onun cəsədini rəfiqəsi Pameladan başqa heç kəs görməyib.

Beyonce`un özündən 5 yaş kiçik Solange adında bacısı var. Deyirlər, əslində Beyonce onun bacısı deyil, anasıdır.

**Uzaq keçmişdə pop musiqisinin kralı Michael Jackson yüksək dərəcəli yanıq xəsarəti alan Dave adında oğlana yardım göstərmişdir. Həmin zamandan onlar dost olmuşlar. Qəribədir ki, Dave canlı əfsanənin yas mərasiminə pop-kralın şəxsi avtomobilində gəlmişdi. Daha sonra Larry Kingin şousunda iştirak edən Dave`in göz rənginin yaşıldan qəhvəyiyə dəyişilmişdi, bədən dili və səsi isəMichael Jacksonu xatırladırdı. Deyirlər, Michael Jackson sağdır. O sadəcə rahat həyatı seçərək, Dave roluna girib.**

**Eminquey**

# Gəncədəki halal KİŞİ

## Onun sözü də HALALdı

*Əbülfət MƏDƏTOĞLU*

**Söz adamlarının taleyi sözlərinə oxşayır. Elə ki, onların sözləri ilə üz-üzə qaldım özlərini görməyə, hətta o sözlə onların özlərini də oxumağa başlayırsan... Bir də onda ayılırsan ki, sözünü oxuduğun adamın özünü də sözü qədər tanıyırsan, sözü qədər özünü doğma bilirsən. Bax, bu bucaq altında baxanda mən Gəncədəki bir Halal söz adamını düşünürəm, xatırlayıram. Üstəlik, onu da xatırlayıram ki, bu Halal Söz Adamı göylərdən də xəbərdardır, yerlərdən də. Göylərin də dilini, sirrini bilir, yerlərin də. Hətta ona göylərdən də səda gəlir, yerlərdən də. Mən bunun canlı şahidiyəm. Çünki...**

Tam səmimi, necə deyərlər əlim ürəyimin üstündə etiraf edim ki, onunla tanışlığımız sözdən başlayıb. Oxucusu olmuşam. Oxucusu ola-ola da onun tələbələrinin, yetirmələrinin dilindən düşməyən adının içində səmimi bir həsəd hissi yaranır. Belə ki, hələ müharibənin "Daş dövrü"ndə şair dostum Xosrov Natil Gəncədəkit təhsil illərindən danışanda onun adını xüsusi sevgi ilə çəkirdi. Sonra bu sevgini şair Qəşəm Nəcəfzadənin, Sərvaz Hüseynovun, xüsusilə Elçin İsgəndərzadənin dilindən eşitdim. Özdə təkrar-təkrar. Daha sonra bu çevrə genişləndi. Oraya İradə Aytel də, Elnur Baxış da, İnqilab İsaq da... və başqaları da daxil oldu. Adlarını çəkdiyim dostlarımla hər təmasımda ondan danışdıq. Onun səmimiyyətini, halallığını, ağayanalığını, eləcə də sözün şah damarına işləmək qabiliyyətini müzakirə etdik. Bax, beləcə tanıdım mən onu.

Yəni sözünü tanıdığım Adamın. Sonra telefon bağlantılarımız yarandı. İlk dəfə telefonda duydum səsini. O səs də sözü kimi həlim idi. Çəkdi məni təkrar özünə. Və günlərin bir günü də ədalətin Gəncədəki təmsilçisi Yaşar Nəbiyevlə Füzuli Rüzgar onun salamlarını çatdırdı mənə, bir də yazılarını. Həmin andan ədalətin bir yazıları da, bir müəllifi də artdı. Yəqin ki, onun kimliyini səbirsizliklə gözləyirsiz bu yazını oxuduqca. Amma tələsməyin, bir az da gözləyin. Onda biləcəksiniz ki, Şeyx Nizami yurdunda sözün keşiyində duran, söz adamlarını öz ətrafında cəmləyən dünyanın ən təmənnasız, ən iddiasız, amma ən halal bir yazıçısı yaşayır. Maraqlıdır ki, onu görə-görə bəzən görməməzliyə vuranlar da olur. Hətta yubileylərinin keçirilməsini də bu istiqamətdə hansısa bir addımı atmağı da özlərinə rəva bilməyənlər az deyil. Olsun! Bu, heç nəyi dəyişmir. Çünki ortada söz var, bir də o sözü yaradan Kişi!

... Üç il bundan öncə Gəncədə görüşdüm onunla. Tiflisdən qayıdırdım. Yolda daha doğrusu, sübh tezdən sərhədi keçəndə Füzuli Rüzgara zəng vurdum. Axşamdan danışdığımızda ona zəng etməli idim. Füzulidən xahiş etmişdim ki, Gəncənin ən çox xoşladığı dovğasını almaqda mənə yardımçı olsun. Eşitmişdim ki, xüsusi yerlərdə həmin dovğanı bişirib satırlar. Təbii ki, Füzuli də sözümü qəribçiliyə salmadı. Dedi ki, sərhədi keçən kimi birbaşa Gəncəyə gəl. Onun dediyi ünvana gəldim. Çatanda gördüm ki, küçədə dayanıb gözləyir. Görüşdük, məni yaxınlıqdakı kafeyə dəvət etdi, səhər çayı içmək üçün. Elə gedə-gedə dedi ki, indi ustad da gələcək, axşam ona xəbər vermişəm gələcəyini.



***Doğrusu, həm sevindim, həm də yaşlı bir adama əziyyət verdiyimizə görə rahatsız oldum. Amma artıq iş-işdən keçmişdi. Biz kafeyə daxil olub yenicə əyləşmişdik ki, qapı açıldı. Çöhrəsindəki nurla içəri bir Halal Kişi daxil oldu. Şəkillərdən çöhrəsini tanıdığım Qərib Mehdi idi gələn. Onda pandemiya olmadığından möhkəm qucaqlaşdıq. Köhnə dostlar kimi görüşdük. Hətta bir az ərklə məni danladıda ki, evə gəlmək lazımdı, kafeyə yox...***

Mən bu təsadüfi görüşü elə belə xatırlatmıram. Bununla demək istəyirəm ki, hər gün gözünü mazol edən adamları görməkdənsə ruhuna doğma olan, halal sözün kənkanı, kişiləri, bütövlükdə yaradıcıları uzaqdan-uzağa görmək daha gözəldi, daha maraqlıdı.

Onlarla hər gün görüş həyatda nəyəsə naxış vurur, ilmə atır və beləcə ömür də mənalanır.

Biz o çay süfrəsi arxasında ədəbiyyatdan, sözdən, yaradıcılıqdan, sonra mətbuatdan danışdıq. Qərib müəllim "Ədalət" qəzetinin ədəbiyyat yolundakı missiyasında çox böyük sayqı və sevgi ifadə etdi. Xüsusi bir şəkildə vurğuladı ki, sağ olsun qəzetin rəhbərliyi, bölgələrdəki ədəbiyyatı, onların təmsilçilərini yaddan çıxarmır. Şəxsən biz Gəncədə ədalətin hər bir nömrəsini səbirsizliklə gözləyirdik. Elə ay, bəzən elə həftə olmur ki, bu qəzetin səhifəsində Gəncə yazarlarının imzası olmasın. Budur mətbuatın xidməti. Bunun üçün də biz Gəncə yazarları sizə həmişə minnətdarıq.

Təbii ki, bu xoş sözlər, bu qiymət mənim Gəncə səfərimdəki ən böyük qazancım idi. Haqqımızın etirafı məni də qürurlandırmışdı, mənə qol-qanad vermişdi. Ona görə də tam səmimi şəkildə müəyyən iradları da çözdük. Qərib müəllim dedi ki, onlar normal bir prosesdir. Hər yazar və hər yazı önəmli ola bilməz. Amma hər yazının içində mütləq bir söz, bir fikir var ki, o önəmlidir, ona istinad edib yazını çap etmək olar.

Bəli, bax bu təəssüratın içindən çıxıb gəlirəm mətləb üstünə. Demək istəyirəm ki, Qərib müəllimin kitablar, sözü barəsində mən də öz biliyim daxilində fikir söyləmişəm, oxucu münasibətimi bildirmişəm. Amma Qərib müəllimin mənim 60 illik yubileyimlə bağlı yazdığı məqalənin qarşısında təbii ki, mənim sözüm bir az boynu bükük olub. Axı, Qərib Mehdi sözü daha böyük, daha tutarlı, daha kəsərlidir.

Bu gün ömrünün növbəti yubileyini qeyd edən Qərib müəllim barəsində oxucu, şair, mətbuat işçisi kimi nəsə demək istəyi ilə özümü köklədim.

Yəni məramım, məqsədim Qərib Mehdi yaradıcılığına daha fərqli bir münasibət ifadə etmək idi. Amma gördüm ki, mən bu Halal Kişinin cızdığı çevrədən çıxa bilmirəm. Ona görə də sağ əlimi qaşımın üstünə qoyub gözümə günlük edərək Bakıdan Gəncəyə tərəf boylandım. Gördüm Qərib Mehdini. Elə necə görmüşdümsə o əzəmətdə, o təbəssümlü çöhrədə. Bu da mənə bəs etdi. Çünki Bakıdan baxanda görünən Qərib Mehdi dünyanın harasına baxsan görünəcək. Mənə də onun görünməsi, var olması lazımdı, gərəkdi. Həmin gərəkliyin, lazım olmanın içərisində möhkəm özül olan səmimiyyətin və halallığın yazan qələmi Qərib Mehdinin əlindədi. Bu gün belədir, inşallah sabah da belə olacaq. Bu gün yubileyiniz mübarək Qərib müəllim! - deyirəm. İnşallah sabahlarda da yəqin ki, belə olacaq.

***P.S. Qərib müəllim, yəqin ki, ikimizin arasındakı məlum sehirli sözü unutmamısınız. Mən onu ömür boyu yaddaşımda yaşadacam. Bu söz sizin səmimiyyətinizin açarıdır. Baxın görün sizə nəsə deyirlər?..***

# Gedənlərin qayıtmağı...

*Elçin Hüseynbəyli*

**Başlıq hansısa əsərin adına oxşadı... Olsun!**

**"... Mən gedirəm Zəngilana..." Gedirik. Zülfü Adıgözəlov oxuyur. Maşını Elli Atayurd sürür. Mətbuat katibimiz Xəyal Rza, hüquqşünas şairimiz İlqar Türkoğlu arxada oturub. Əsgərlik yoldaşım Yavər Abdinova zəng edirəm. Millətimizin üzünü ağardan, təpərli insana - Qəbələnin Vəndam kəndində "Vüsal" Ailəvi İstirahət Mərkəzinin sahibinə. (Sonra da deyirk, məni niyə reklam eləmirsiniz! Di hı! Bu da bir reklam!) Mahnının sözlərini eşidəndə təəccüblənir. "Mənsiz?!" Gülürəm. Sonra başa salıram ki, "Zəngilana" qulaq asa-asa Gədəbəyə gedirik. "Təsadüfən alındı" deyirəm. Doğrudan da Gədəbəy planı bədahətən işə düşdü.**

İcra başçısı İbrahim Mustafayevlə çoxdanın tanışıyıq. Ədəbi zövqlərimiz oxşardı, ortaq şairlərimiz, yazıçılarımız var. Düz tapdınız: İbrahim müəlim ədəbiyyatı da, mədəniyyəti də bilən, hörmət edən, qayğısını çəkən adamdır.

Baxtımızın gözəl vaxtı, taxtımızın firavan çağıdır. Hər tərəf göz oxşayır. Ən isti Kürdəmir belə, öz yaşıllığı, sərinliyilə bizə zövq verir...

Gədəbəyə çatırıq. Bizi "Meh" mehmanxana-restoran kompleksində başçının birinci müavini, 20 illik dostum, unudulmaz şairimiz İlyas Tapdığın qohumu Natiq Nağıyev qarşılayır. Elə burdaca deyim ki, mənə Gədəbəyi tanıtdıran və sevdirən İlyas Tapdıq olub. "Meh"də ki, elə mehdir: gözəl, əvəzi olmayan sərin bir guşə.

Dostlar, desəm ki, Gədəbəy ölkəmizin ən yaraşıqlı rayonudur, inciməyin. Qarabağ ürəyimiz, Gədəbəy gözümüzdür. Bu rayonu gözlə tanıyır, başımızla anırıq... Gözəllik panoramıdır. Bir dəfə yaxın dostum Gədəbəyə baxıb belə dedi: "Bu gözəlliyi adam gözlərinə yığmaq istəyir." Şairlər üçün yaxşı rədifdir...

Gədəbəy İcra hakimiyyətinin binasına girəndə əməlli-başlı heyrətlənirik. "Bura "Asan" xidmətdir" deyirəm". Çünki səkkiz guşənin arxasında məmurlar oturub. Bir fərq var ki, müştəri yoxdur. "Bura asan yox, asanlaşdırılmış xidmətdir" - İbrahim müəllim gülərək deyir. Doğrudan da öncələr şikayətçilərin əlindən İcra Hakimiyyətinə girmək müşkül idi. İndi isə heç kim yoxdur. Şikayətçilər də yoxa çıxıb, növbələr də.

"Gədəbəy uzaq rayondur, gediş-gəliş də azdır. Amma biz işləyirik və istədim ki, yeniliklərlə tanış olasınız."

Bu sözləri deyən İbrahim müəllimlə dostluğumuz İlyas Tapdığın 85 illik yubileyində möhkəmlənib.

Söhbət zamanı bizi əməlli-başlı təəccüblendirir. Nəinki bizi tanıyır, hətta yazılarımızdan söz açır, cavan müəlliflərimizi soruşur.

"Qulu Ağsəs neynir e?" deyir. Məşhur şairlərimizdən şeirlər də deyir. "Məndən olsa, icra başçılarının hamısı yazar olar" deyirəm. "Siz də yazırsınız, yəqin!?" deyə eyham vururam. O da şəhadət barmağını qaldırır və deyir: "Bu gün tarix yazılır. Onu da möhtərəm Ali Baş Komandan İlham Əliyev yazır" deyir. "Vətəni də sevir, şairləri də, yazıçıları da!"

Söhbət ayrı səmtə yönəlir. 44 günlük müharibədən ağız dolusu danışırıq. "Abrımız örtüldü" deyirəm...

"Gədəbəydə Yaylaq festifalı keçirmişik və istəyirəm ki, burda tez-tez belə festifallar, görüşlər olsun. Təklifi sizdən gözləyirik" - İbrahim müəllim deyir.

Ədəbiyyatdan, mədəniyyətdən gecə yarısına kimi danışırıq. Amma söhbətimizin ortasında Qarabağ dayanır: "Mən gedirəm Zəngilana..." Yadıma düşür ki, ustadımız və ağsaqqalımız Anar müəllimin sözlərinə hərb nəğmələrimizin yaraşığı Şahin Musaoğlu da mahnı bəstələyib. Ona da qulaq asırıq. Amma hara fırladırıqsa, Zülfü Adığözəlov çıxır və oxuyur.

Mahnının bir yerində kövrəlirəm. Siz də kövrəlin: "Mənim atım yəhərlidir, qızıl-gümüş kəmərlidirr. Sənin oğlun hünərlidir. Gedirəm, ana, gedirəm, ana Zəngilana! Gedirəm axı! Gedirəm axı!" Şəhid Xudayara görə hamımız göz yaşları axıdırıq və bir kələmə də danışmırıq.

Dostlar Gədəbəy çox gözəldir. Elə bilirəm ki, buranı turizm zonasına çevirmək vacibdir və ən gözəl hava limanlarından biri də burda tikilməlidir. Düzyurd ən münasib yerdir. İndi bütün investisiya Qarabağa qoyulur və bu doğrudur. Amma Gədəbəy də bizim səngərimizdir axı. Nainsaf, bimürvət, nankor qonşularımız bura da dəfələrlə əl uzadıblar. Amma gədəbəyli soydaşlarımız onların əlini kəsiblər...

Qafqaz Albaniyasının, qədim Azərbaycanın möhtəşəm məbədlərindən biri Mahrasadır. Məbədə 15,5 km yol çəkilib: dağları dərələri aşa-aşa, qayaları yara-yara. "Bu işlərə Natiq müəllim başçılıq edib. Elə olub ki, günlərlə yatmayıb. Biz buraları turizm mərkəzlərindən birinə çevirmək istəyirik". İbrahim müəllim yolla gedə-gedə bunları deyir.

Mahrasa məbədi dördüncü əsrdə tikilib. Böyük bir kompleksdir. Mən bu sahə üzrə mütəxəssis olmasam da, azdan-çoxdan məlumatım var. Mahrasa, güman ki, örtülü yer olub. Hasarı, zəng qülləsi, karvansarayı, hücrələri, ibadət yerləri, monastrı ilə birgə. Amma bura dövlət dəstəyi olmasa düzəlməz. Bayaq dediyim kimi, indi əsas diqqət Qarabağımızadır. Amma buraları da yaddan çıxara bilmərik.

Bir az irəlidə Qız Qalasıdır. Doqquzuncu əsrə aid olan qala qaya üzərində inşa olunub. Üç hasarından ikisi dağılıb. Əzəmətindən, duruşundan bəlli olur ki, bu yerləri qoruyub. Elə ona görə də qürurludur. Bəlkə adı başqadır?

**Çobankənddə cavan şair dostumuz İntiqam Yaşarın, Şəmkirdə qədim-qayım dostum Tərxanın, Şəkidə doxdur (həm də yazıçı) Vüqar Əmrahın, şair-tərcüməçi Qoca Xalidin qonağı olduğumuzu yazmıram. Çünki bu görüşlər plandan kənar idi. Əslində görüşlər elə plansız olmalıdır. Biz Gədəbəyə maşınla getsək də, oraları maşınla gəzsək də, yazını atüstü, çaparaq yazdım. Daha dolğun yazılarımız olacaq...**

**Allah amanında, dostlar!**

***P.S.** Hə, yadıma düşdü. "Gedənlərin qayıtmağı" məşhur romançımız Sabir Əhmədlinin əsəridir. Onu da bu cür andıq! Ruhu şad olsun!*

**Bakı-Gədəbəy-Şəmkir-Şəki-Bakı**
**20-25 may, 2021**

# Ustadnamələr şairi Kamil Həsən

**Məşhur Yunan filosofu Sofokl deyib ki, kitablar oxucusunun dostudur.Yaxşılıqdan bəhs edən hansı ki, oxucusuna müsbət insani keyfiyyətlər aşılayan kitablar əsl yaxşı dost hesab olunur. Oxucusuna mənfi emosiyalar aşılayan və onları şərə, pisliyə sürükləyən kitablar isə pis dost kimi qiymətləndirilir.**

Hər hansı bir fikri, ideyanı, olayı nəsrə və ya nəzimə çəkmək, ona ruh vermək böyük Yaradanın öz bəndəsinə bəxş etdiyi fəlsəfi idrakın, mənalar aləminin mahiyyətinin açarıdır.

İstedadlı şair Kamil Həsən də məhz belə şairlərdəndir. "Qızıl qələm" media mükafatçısı Yadigarov Kamil Həsən oğlu bir neçə kitabın müəllifidir. Onun bu yaxınlarda işıq üzü görmüş növbəti kitabı "Ürəklərdə yerim olsun"şeirlər toplusudur. Yadigarov Kamil Tovuz rayonunun Qovlar şəhərində dünyaya göz açıb. Laylası saz havaları ilə Ana-Nənə bayatıları ilə yoğrulan Kamil müəllimin saza-sözə vurğunluğu kiçik yaşlarından özünü göstərib.

Onun ta məktəb illətindən üzü bəri yazdığı şeirləri cavanların can dəftərində daim yer alıb. Hal-hazırda Kamil Həsəni Tovuz mahalında ustadnamələr şairi kimi tanıyırlar. Onun bir çox şeirlərini qiraət ustaları el şənliklərində daima tamaşaçılara çatdırıb, insanların ruhuna qida verirlər.

***Məsləhətim budur bilin a dostlar,***
***İnsan yaşamaqçün hərəkət eylər.***
***Haqqın tərəfindən gələn qismətin ,***
***Azına, çoxuna bərəkət deyər.***

***Bir tikəni ayrı yeməz birindən,***
***Yer göstərər, özü qalxar yerindən.***
***Kamil, qaçmaq olmaz el nəzərindən,***
***El gözü sərrafdır, düz qiymət verər.***

Hər bir şairin poetik özünə məxsusluğu şeirlərinin oxucular arasında hörmət qazanması ona ictimai mükafatdır. Oxucularının sağlam bədii zövqünü oxşayan poeziya geniş yayılır. Xalqın ruhuna, gözəl ənənələrinə öz poetik düşüncələri ilə səmimi yanaşan şair hər zaman oxucusu tərəfindən sevilir.

***Dostlar nə küsməsin, nə inciməsin,***
***Dəyişib bu tarix, bu zaman indi.***
***Qohumlar yad olub bir-birinə***
***Qalmayıb nə ilqar, nə inam indi.***

***Haqdı səbəbkarım, canı-cövhərim,***
***Onun qüdrəti ilə olub hünərim.***
***Kamiləm seçilib ləlim, gövhərim,***
***Çəkirəm, olmuşam bir mizan indi.***

Bu kitabı vərəqləyib, şeirlərindən mənəvi qida alan hər bir oxucu, ilk baxışdan müəllifin mövzü dairəsinin genişliyini, rəngarəngliyini duyur. Azərbaycan xalqının nəfsi poeziyaya qarşı büllur kimi təmiz olduğu üçün başqaları tərəfindən çeynənmiş, qoxlanmış heç nəyi yaxına buraxmır. İlahidən gələn ilham sahibi olan şairlərin də yaradıcılığı təbii ki, belədir. Onlar özgəsinin fikirini, düşüncəsini, ifadə tərzini qətiyyən təkrarlanmır. Həmişə öz halal ilhamının səsinə qulaq asır Kamil Həsən kimi




Kamil müəllim uzun müddət Qovlar şəhərinin Peşə və İnternat məktəblərində pedaqoji fəaliyyət göstərib.

Onun yetirmələrinin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən xoş növraqla gəlir. Bütün bunlar onun ürəyinə təpər, dizinə qüvvət verir.

O, yaşının ahıl çağında da yazıb, yaratmaqdan yorulmur. Allah tərəfindən vəyhi kimi verilmiş şairlik müqəddəs nemətdir.

Bu nemət yazarı milli ruha kökləyib o kəsi yaşadığı dövrün, zamanın nəbzini tutmağı vardar edə bilirsə, deməli həmin şəxs əsl şairdir.

***İnciməsəm bir kimsənin dilindən,***
***Cəfasın çəkərəm yolda qoymaram.***
***Könlünü xoş edib, tutub əlindən,***
***Qabağa çəkərəm, dalda qoymaram.***

***İstəmərəm ayağına daş dəyə,***
***Öz işiyçün kimlərsə baş əyə.***
***Dünən gəda olub, bu günkü bəyə,***
***Qazanmağa bircə xal da qoymaram.***

***Haqlı olanlara mayak olaram,***
***Düz yol göstərərəm dayaq olaram.***
***Kamiləm ki, bax bu sayaq olaram ,***
***Mərdi dar ayaqda, qalda qoymaram.***

Kamil Həsənin yaradıcılığında qoşma və gəraylı formasında yazılan şeirlər öz yığcamlığı ilə fərqlənir. Bu qədim xalq şeir üslubları yeni məzmuna əsla darlıq etmir . Əksinə ona yeni qol-qanad verir, ahəngdarlıq gətrir. Ana südü, Ata sümüyü ilə el-obasını bağlı olan şairin şeirlərində xalq məhəbbəti xüsusi bir sevgi ilə səslənməkdədir.

***Qürrələnmə ucalanda,***
***Əlin tutub bac alanda,***
***Sevil, seçil qocalanda,***
***Ürəklərdə yerin olsun.***

***Təmannasız hörmət qazan,***
***Aləmə yayılsın sədan,***
***Bu dünyadan köçən zaman,***
***Qazancın rəhmətin olsun.***

***Elinə baş ucalığı,***
***Qazan, qalsın üz ağlığı,***
***Demirəm et yaltaqlığı,***
***Ömürlük töhmətin olsun,***

***Sirdaş olmaz hər yoldaşdan,***
***Zatı qırıq, qəlbi daşdan,***
***Kamil deyər əzəl başdan,***
***Sözlər nəsihətin olsun.***

Yeri gəlmişkən deyim ki, Kamil Həsənin bu kitabının adı da yuxarıdakı bəndin ovqatından doğulub: "Ürəklərdə yerim olsun".

**Kamil Yadigarovun poetik dili çox sadə, səmimi ürəyə yatımlı və gözəldir. Onun şeirlərinin ritmi, ahəngi var. Yazdığı hər bir şeri sanki bir saz havacatı ilə müşayiət olunur. Və şairin şeirlərinə inamı, etibarı artırır. Onun heç bir şerində " ölü" söz yoxdur. Misraları, bəndləri ümumiyyətlə şeri dadsız-düzsüz edən, "ölü" sözlərdir. Söz, qafiyə yerinə düşməyəndə o özündən əvvəl ki və sonrakı deyimləri də zorla bağlamış olur. Hər sözün öz rəngi var. Sözləri misralarda yanaşı düzənda gərək onları rənglərin uyuşmasına görə qiymətləndirəsən. Bunları bilmək çətin olsa da Tovuz elinin ustadnamələr şairi "Qızıl qələm" media mükafatçısı Kamil Həsən bu çətinliyin öhdəsindən layiqincə gəlib. Hər adama qismət olmayan xoşbaxtlıqla oxucusuna. "Ürəklərdə yerim olsun" kitabını ərmağan edib. Bu gözəl işində Kamil müəllimə uğurlar diləyirəm.**

**Dost salamı ilə**
**Mahmud Mayıloğlu**

*İbrahim Yusifoğlu*

## 1 iyun-Usaqların Beynəlxalq Müdafiəsi günüdür

### *Qıymayın uşaqlara*

***Ay, günəş istəyirlər,***
***Nur ələnsin cahana.***
***Şeh, yağış diləyirlər,***
***Təbiət gəlsin cana.***
***İstəyirlər gül, çiçək***
***Ətri çöksün hər yana.***
***Raketləri, topları***
***Tuşlamayın onlara.***
***Tanrıdan gələn səsdi:***
***- Qıymayın uşaqlara!***

***Uşaqları gül üstə***
***Kəpənəklər gözləyir.***
***Səkilərdə gəzişən***
***Göyərçinlər səsləyir.***
***Bülbüllər, qaranquşlar***
***Şux nəğmələr bəsləyir.***
***Bu rəngarəng dünyanı***
***Boyamayın siz qana.***
***Ey insan qatilləri,***
***- Qıymayın uşaqlara!***

***Arzuları tumurcuq,***
***İstəkləri qönçədi.***
***Yaşamaq həvəsləri***
***Hər istəkdən öncədi.***
***Baxışları ovsunlu,***
***Gülüşləri incədi.***
***Dünyanın sinəsinə***
***Vurmayın ağır yara.***

***Ey insan qatilləri,***
***- Qıymayın uşaqlara!***

***Əl boyda uşaqların***
***Ömrünü söndürdünüz.***
***Gecə şirin yuxuda,***
***Yataqda öldürdünüz.***
***Neçə məsum körpəni***
***Ölümə güldürdünüz.***
***Bu vəhşi əməllərdən***
***Dünya gəlibdi zara.***
***Daha yetər, son qoyun,***
***Son qoyun terrorlara.***
***Bu tanrının səsidi:***
***- Qıymayın uşaqlara!***

### *DOVŞAN GİRDİ BOSTANA KƏLƏM YEDİ DOSTYANA*

***-Dovşana bax,dovşana,***
***Sığınıbdı yovşana.***
***Gözləyirki, biz gedək,***
***Gəlib girsin bostana.***

***Dovşan girdi bostana,***
***Boylandı dörd bir yana.***
***Gördü baxan yox ona,***
***Kələm yedi dostyana.***

### *KƏNDİMİZ*

***Dağlar qoynunda***
***Bir kəndimiz var.***
***Onu görənlər***
***Heyran qalırlar.***
***Gözəl yaradıb***
***Tanrı bu kəndi.***
***Adamları da***
***Zəhmətsevəndi.***

***Gündüzlər günəş***
***Şəfəq ələyir.***
***Gecə ay, ulduz***
***Nura bələyir.***

***Yazda bulaqlar***
***Coşub çağlayır.***
***Dağ çayı daşıb***
***Yola bağlayır.***

***Yayda şəhərdən***
***Qonaqlar gəlir.***
***Çadırlar qurub***
***Burda dincəlir.***

***Çobanlar düzə***
***Yayır sürünü.***
***Balıqlar gölə***
***Qoyur kürünü.***

***Köçəri quşlar***
***Qayıdıb gəlir.***
***Qazlar, ördəklər***
***Bala bəsləyir.***

***Babalar hər gün***
***İş bacarandı.***
***Nənələr kövrək***
***Layla çalandı.***

***Dağların başı***
***Çənsiz olmayır.***
***Yemişan, zirinc***
***Barsız olmayır.***
***Boldu alması,***
***Heyvası, narı.***
***Yaman boy atıb***
***Qoz ağacları.***

***Təpələr, düzlər***
***Nərgiz, lalədi.***
***Dağ zanbaqları***
***Gül piyalədi.***

***Uşaqlar burda***
***Çox mehribandı.***
***Gözəl oxumaq***
***Şərəfdi, sandı.***

***Çox ətirlidi***
***Nanə, yarpızı.***
***Bal tək şirindi***
***Qovun, qarpızı.***

***Əgər astaca***
***Qalxsan bu dağı,***
***Dərərsən çoxlu***
***Quzuqulağı.***

### *ÇAYIR*

***Baba yeri bellədi,***
***İki kərdi qayırdı.***
***Torpaqdakı otları***
***Kərdilərdən ayırdı.***
***Araz bu vaxt otların***
***Üstə torpaq yayırdı.***
***Bu işini babaya***
***Hələ kömək sayırdı.***
***Babası görcək onu***
***Tezcə işdən ayırdı.***
***Dedi: - Otların yeri***
***Bostan deyil, bayırdı.***
***Bürüyür düz-dünyanı,***
***Araz, bunlar çayırdı.***

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 56 (2237) 1 iyun 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Qəhrəman Tərtəri gözləyən sabah

**Otuz illik müharibə tariximiz təkcə özümüzü yenidən tanımağa deyil, həm də cəbhəyanı bölgələrimizin durumunu, onun təbii coğrafi resurslarının yenidən tanımağa, yenidən öyrənməyə səbəb oldu. Bir faktı vurğulamaq yerinə düşər ki, bu müharibədə Tərtər rayonu "Azərbaycanın Stalinqradı" adını qazandırdı. Təbii ki, bu da Tərtər rayon sakinlərinin, bütövlükdə bu bölgədə yaşayanların dəyanətini, torpağa bağlılığını, xüsusilə düşmənə qarşı olan böyük qəzəblərini, həm də onların cəsarətini nümayiş etdirdi. Hər kəs gördü ki, tərtərlilər öz kəndləri, öz əkin-biçin sahələri, öz yurd-yuvaları üçün necə vuruşur, necə döyüşür. Bu isə bütöv bir müharibə salnaməsinin yalnız bir hissəsidir. Deməli, Azərbaycanın ərazi inzibati vahidi olan Tərtər rayonu bütövlükdə düşmənlə üz-üzə həm vuruşdu, həm yaşadı, həm də yaratdı.**

Tərtər rayonu Sovet dönəmində Mirbəşir adı ilə tanınsa da, 1991-ci ilin fevralında ona öz qədim adı qaytarıldı. Bu tarixi ədalətin bərpası təkcə ideoloji məsələ deyildi, bu həm də Azərbaycan tarixinin yeni baxışı idi. Deməli, coğrafi baxımdan keçmiş muxtar vilayətlə həmsərhəd olan Tərtər rayonu həm dağlıq, həm də Aran torpaqları ilə diqqəti çəkir. Yəni, buranın relyefi elədir ki, dağlıq, düzənlik, dağətəyi sahələr bir-birini tamamlayır. Rayonda məhz həmin o dağlıq hissələrdən axıb gələn çayların gətirdiyi bol suların hesabına əkinçilik zaman-zaman inkişaf etdirilibdi. Ümumiyyətlə kənd təsərrüfatı rayonu olan Tərtərdə həm əkinçilik, həm heyvandarlıq, həm də bostan-tərəvəz məhsullarının istehsalına hər zaman diqqət göstərilib. Bu gün də həmin proses davam etdirilir. Ərazi baxımından Ağdam, Bərdə kimi rayonlarla həmsərhəd olan Tərtərdə həyatın inkişaf səviyyəsi də demək olar ki, son illərdə xeyli dəyişibdi. Əgər gözümüzün önünə ötən əsrin 80-90-cı illərini gətirsək, onda görərik ki, həmin zaman kəsiyində respublikamızın bir çox bölgələri kimi, Tərtərdə də daha çox əkin-biçinə, heyvandarlığın inkişafına diqqət yetirilib. Doğrudur, rayonun mərkəzində və daha böyük yaşayış məntəqələrində sosial obyektlər mövcud idi, amma bütün bunlar nə zamanın tələbinə cavab vermirdi, nə də rayonun görünüşünü qabartmırdı, diqqətə təqdim etmirdi. Tərtər daha çox bir kənd rayonu olaraq öz missiyasını yerinə yetirirdi. Lakin torpaqlarımızın işğalı və Qarabağ savaşının başlanması Tərtərdə proseslərin gedişinə çox ciddi təsitr göstərdi. Belə ki, Qarabağın erməni sakinləri indi yaşadığı həmsərhəd kəndlərdə vəziyyət demək olar ki, kökündən dəyişdi. Hər bir edilən həmlələr, atılan top və qrat mərmiləri bu kəndlərdə həyatı demək olar ki, iflic etmişdi. Adamlar öz təsərüfatlarında gecə işləməyə məcbur olmuşlar. Hətta suvarma işləri ilə bağlı ermənilərin yaratdığı problem torpaqların boş qalmasına səbəb olmuşdu. Bu da öz növbəsində rayonun iqtisadi büdcəsinə və əhalinin bazar zənbilinə çox ciddi təsir göstərmişdi.

Zəfərlə nəticələnən müharibəmizin nəticələrinin aradan qaldırıldığı indiki zamanda Tərtərdə böyük işlərə start verildi. Azərbaycan prezidenti cənab İlham Əliyevin imzaladığı "Regionların İnkişafına Dair Dövlət Proqramı"na uyğun olaraq digər ərazilərdə olduğu kimi Tərtərdə də planlı şəkildə quruculuq abadlıq işlərinə başlanmışdı. İlk öncə əhalinin su təminatı məsələsi aradan qaldırılmağa başlanıb. Ona görə də bu il Tərtərdə əkin altındakı torpaqların ərazisi daha böyükdür. Bu da o deməkdir ki, həm Tərtərin özündə, həm ölkənin bazarlarında Tərtər məhsullarının çeşidi və həcmi daha çox, daha böyük olacaqdır. Suvarma məsələlərinin həlli ilə yanaşı, rayonda dağıdılmış yolların bərpası və bir qisminin isə yenidən çəkilməsi istiqamətində planlı işlər aparılır. Ağır döyüşlərin getdiyi Tərtər ərazisində yol strukturuna köklü ziyan dəymişdir. Məhz aidiyyatı qurumların apardığı hesablamalara uyğun olaraq yekunda Tərtərdə daha müasir yolların çəkilməsi, mövcud işə yarayan yolların tam təmir edilməsi istiqamətində demək olar ki, kompleks işlər görülür.

Tərtər rayon icra hakimiyyəti başçısının rəhbərliyi altında fəaliyyət göstərən xüsusi şuranın bilavasitə məsələlərə müdaxiləsi, zamanında ortaya çıxan problemlərin aradan qaldırılmasına dəstək verilməsi görülən işin sürətinə mane olmur, əksinə əlavə təkan verir. Bu da o deməkdir ki, hal-hazırda Tərtərdə küçə və yolların abadlaşdırılması, səkilərin yenidən qurulması sakinlərin ürəyincədir.

Tərtər rayonunda taxılçılığın, meyvə istehsalının, eləcə də digər məhsulların həm çeşidinin, həm də kəmiyyətinin artırılması istiqamətində planlı işlər görülür. Münbit torpağın malik olduğu bu rayonda sovet dönəmində olduğu kimi üzümçülük sahəsinə də diqqət yetirilir, pambıqçılıq inkişaf etdirilir. Rayon ərazisində pandemiya dövrünün tələblərinə uyğun olaraq əmək fəaliyyəti nizamlanır ki, bu da insanların yoluxma ehtimalını xeyli aşağı salır. Adamlar daha çox kənd təsərrüfatı ilə məşğul olduqlarından onların zəruri qoruyucu vasitələrdən istifadəsi, dezinfeksiya işləri də nəzərdən qaçırılmır. Elə bu səbəbdəndir ki, rayonda virusla mübarizə sahəsində görülən planlı işlər daha uğurludur.

Bu gün Tərtər rayonu daha çox Suqovuşan və Talış kəndlərinin işğaldan azad edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki Suqovuşan və Talış həm strateji obyekt, həm də sakinlərin su və elektrik təchizatı baxımından daha çox ehtiyac duyduğu nöqtələr idi. Deməli, Suqovuşan azad edilməsi ilə böyük bir ərazinin suvarma problemi də aradan qaldırılmışdı. Bütün bu söylənilərlə yanaşı, Tərtər rayonu mövcud tarixi memarlıq abidələri hər zaman diqqətçəkən olubdu.

**Yaşı ötən əsrlərə gedib çıxan bu abidələrin hər biri göstərir ki, rayon insanların daha çox məskunlaşdığı, sığındığı ərazilərdən olub. Məhz bunu nəzərə alaraq bu gün Tərtəri bir qəhrəman şəhər kimi köklü şəkildə yenidən tikib, qurub abadlaşdırmaq və onu həm layiq olduğu, həm də tələb olunan müasir yaşayış məskənləri sırasına çıxarmaq lazımdı. Bunun üçün ölkə prezidentinin diqqət və qayğısından yararlanmaq aidiyyatı qurumların əsas vəzifəsi olmalıdır. Onu da qeyd etmək lazımdır ki, Tərtərdə həm kənd təsərrüfatı, həm də sənaye sahələrinin inkişaf etdirilməsi üçün proqramlı şəkildə fəaliyyət göstərilməlidir. Bu da öz növbəsində Azərbaycanımızın şöhrətinin və gözəlliyinin artırılmasına verilən töhfə olar.**

***Əbülfət Mədətoğlu***


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# Gülşən Ağayeva: "Elə məqamlarla rastlaşıram ki..."

## "Gərək kanondan çimdiyini əskik etməyəsən..."

***Kanon Yaxın və Orta Şərqdə, eləcə də Azərbaycanda məşhur olanə musiqi alətidir. Azərbaycan klassiklərindən Nizami Gəncəvinin, Məhəmməd Füzulinin və başqalarının əsərlərində bu musiqi aləti barədə geniş məlumat verilib. XII əsrdə yaşayıb-yaratmış, Şərq musiqi elmini dərindən bilən şairə Məhsəti Gəncəvi qanun və çəng alətlərinin məharətli ifaçısı olub. Uzun tarixi inkişaf yolu keçən bu alət zaman-zaman formalaşaraq, dövrümüzə hazırkı forması kimi gəlib çatıb. Bu gün 12 cür kanondan istifadə olunur. Azərbaycan musiqi mədəniyyəti tarixində xüsusi xidmətləri olan dahi bəstəkarımız Fikrət Əmirovun atası Məşədi Cəmil Əmirov 1912-ci ildə Türkiyədə olarkən, Şərqdə məşhur olan musiqi alətlərindən ud və qanunda çalmağı öyrənib və 1913-cü ildə vətənə qayıdarkən özü ilə bu iki aləti də gətirib.***

***Azərbaycanın birinci qadın kanon ifaçısı isə mərhum Asya Tağıyeva olub və 1959-cu ildə onun ifasında ilk dəfə bu alətdə "Bayatı-Şiraz" və "Çahargah" muğamları vala yazılıb. Asya xanımın bu gün onlarla layiqli davamçıları var. Bu gün onlardan biri gənc kanon ifaçısı Gülşən Ağayeva ilə olan söhbətmizi sizə təqdim edirik.***

### 18 illik təhsil...

**- Gülşən xanım, istərdim söhbətimizin əvvəlində özünüz barədə oxucularımıza məlumat verəsiniz.**

- Mən Ağayeva Gülşən İsmayıl qızı Bakı şəhərində anadan olmuşam. Kanon ifaçılığına gəlişim sırf təsadüf nəticəsində olub. Əvvəllər heç bu Alət barədə məlumatım yox idi. Hardasa 8-9 yaşım vardı, o dövrdə bizim təhsil aldığımız 190 saylı məktəbə bir dəfə Pionerlər Evindən bir xanım gəldi. O dedi ki, kanon dərnəyi açılıb ora uşaq seçməyə gəlmişik. Nəsə içimdə görməzə-bilməzə bu dərnəyə yazılmaq həvəsi gəldi və yazıldım da. Sonra anam məni Pionerlər Evinə apardı və kanonu ilk dəfə orada gördüm. Orada 2-3 il bu sənətin sirlərinə yiyələnməyə başladım. Bu müddət ərzində müxtəlif yerlərdə konsertlər verdik, hətta Heydər Əliyev Sarayının səhnəsinə də çıxdıq. 2-3 ildən sonra mən 6 saylı musiqi məktəbinə qəbul olundum. Burada təhsil aldığım illərdə Pionerlər Evindəki dərnəyə də gedirdim. 4 il dərnəkdə, 4 il musiqi məktəbində təhsil alandan sonra Asəf Zeynallı adına Kollecə qəbul olundum.4 il burada, bundan sonra da 4 il Bakı Musiqi Akademiyasında təhsil aldım. Ən sonda Milli Konservatoryanın magistraturasında təhsilimi başa vurdum.

**- Deməli, magistratura ilə birlikdə 18 il edir. Sizcə, bir aləti çalaqdan ötrü 18 ilini təhsilə sərf etməyə dəyərmi? Bu təhslin səbəbi yalnız sənətçi olmaq üçündürmü, yoxsa başqa səbəbləri də var?**

- Mən bu aləti sevib kanonçu olmuşam. Nə vaxtsa bu sənətdə pullar qazanacağımı ağlıma gətirməmişəm, indi də gətirmirəm. Sadəcə olaraq, özümü bu alətdə tapmışam, onu ifa etmək çox xoşuma gəlir. Həm də bu alət xanımlara çox yaraşır. Bu alət Şərqdə çox məşhur olsa da, Azərbaycana gec gəlib. Kanonun vətəni Ərəbistan sayılır. Onlarda 12 cür kanon aləti var. Kanon bu gün ərəb ölkələrində, Yunanıstanda, Türkiyədə çox prestijli alət sayılır. Ərəblər bu alətə "qanun" deyirlər. Və bu aləti mən çox sevirəm. Təbii ki, bu alətdə professional ifa etmək üçün 18 il təhsil almaq adamdan böyük səbr tələb edir.

**- Adam ona görə bir sənəti öyrənir, ona illərini həsr edir ki, sonradan sənət onu yaşatsın. Bu səbəbdən sizin bu sənət vasitəsilə pul qazanmaq barədə düşünməməyiniz bir az qəribə görünür. Əslində kənardan baxanda pafosla deyilən sözlərə də bənzəyir. Necə yəni, 18 il bu sənəti öyrənmişəm, amma pul qazanmaq barədə düşünmürəm. Məgər pulsuz həyat varmı?**

- Kanon ifaçısını məgər bu gün toya çağırırlar ki, pul qazanaq? İkincisi də, Azərbaycan Dövlət Televiziyasının Xalq Çalğı Alətləri Orkestrində çalışıram. Bizim qazancımız yalnız konsertlərdə çıxış etməkdir.

### Ən zəif alətin qiyməti 500 manatdan başlayır

**- Azərbaycanda ilk kanon ifaçısı kim olub?**

- Onu dəqiq bilmirəm, amma bilirəm ki, ilk qadın kanon ifaçısı Asya Tağıyeva olub. O, "Bayatı Şiraz" muğamını dəstgah formasında kanonda ifa edib.

**- Kanon görünüşcə gözə xoş gələn, spesifik şirin səsi olan alət olsa da, nədənsə ifaçıların sayı azdır. Bu nəylə bağlıdır?**

- Çünki alət çox bahadır. Yəni çox adamın ürəyindən bu alətdə çalmaq istəyi keçsə də, almağa imkanı çatmır.

**- Neçəyədir ki?**

- Ən zəif alətin qiyməti 500 manatdan başlayır. Normal kanon hardasa 1000-1500 manatadır. İndi hansı valideyn 500 manatr verib uşağını kanon sinfinə qoymağa meyl edər? Şükürlər olsun ki, son illər kanona maraq göstərən uşaqların sayı artıb. Bu gün Bakının əksər musiqi məktəbində kanon sinfi fəaliyyət

göstərir. Bu siniflərin də ən azı 2-3 şagirdi olur. Bu da sevindirici haldır. Ali musiqi məktəblərinin kanon şöbəsinin yetərincə tələbəsi var. Çünki kanonçuların sayının azlığı bir kanon ifaçısı kimi məni də narahat edirdi.

### Kanon ifaçısı üçün pul qazanmaq çətin məsələdir...

**- Məsələ burasındadır ki, kanona tələb də azdır. Bu uşaqlar kanon ifaçısı kimi yetişdilər, bəs sonra gedib harda işləsinlər? Bayaq özünüz də vurğuladınız ki, toylara kanon alətini sifariş etmirlər. Tanıdığımız ansambllarda da yetərincə kanonçu var...**

- Bəli, təəssüf ki, kanon alətində tələbat azdır. O ki qaldı kanoçuların iş probleminə gənclər bundan narahat olmasınlar. Ölkəmizdə ansambbların sayı artır. Bundan başqa gedib müəllim də işləyəcəklər. Yəni belə şeylərdən çəkinməsinlər.

**- Bayaq dediniz ki, normal kanon 1000-1500 manatadır. Musiqi məktəbində müəllimlər 200-250 manat maaş alırlar. Deyək ki, birdən sabah təsadüf nəticəsində bu müəllimin kanonu sındı. Təzə kanon almaq üçün o ən azı yemədən-içmədən bir il işləməlidir. Hələ bu azmış kimi dərslərdə də tələbəyə dərs keçmək üçün tələbəyə yalvarıb onun kanonundan istifadə etməlidir.**

- Bəli, mən də sizinlə razıyam ki, kanon ifaçısı üçün pul qazanmaq çətin məsələdir. Amma yenə də deyirəm, hər şey pulla ölçülməməlidir. Yaxşı sənətkara hər yerdə pul var...

**- Olmazmı ki, kanonçular birləşib bir ansambl yaratsınlar, repertuarlar hazırlayıb konsertlər versinlər?**

- Mən sizə deyim ki, Milli Konservatoriyanın tələbələrindən ibarət belə bir ansambl var. Amma onları da çox konsertə dəvət etmirlər, çox nadir hallarda konsertlərdə iştirak edirlər.

*Bizim alət ustaları yaxşı tar,*
*kamança, dəf, nağara, tütək,*
*balaban, zurna düzəldirlər,*
*amma kanon düzəltməyi bacarmırlar…*

**- Azərbaycanda kanon düzəldən ustalar varmı?**

- Azərbaycanda çox aşağı səviyyəli kanonlar düzəldilir. Bizdə hazırlanan kanonlar çox keyfiyyətsiz olurlar. Bizim alət ustaları yaxşı tar, kamança, dəf, nağara, tütək, balaban, zurna düzəldirlər, amma kanon düzəltməyi bacarmırlar. Bu gün kanon istehsalında Türkiyə çox irəli gedib. Türk kanon ifaçıları da çox mükəmməl sənətçidirlər. Onlarla bizim fərqimiz odur ki, türklər çərək notdan çox istifadə edirlər. Bu da onlarda təhsilin olmaması ilə bağlıdır. Təhsilsiz, özləri öyrənsələr də çox şirin çalırlar. Mənim özümdə də Türkiyə istehsalı olan alətdir, ondan dərsdə istifadə edə bilmirəm. Yalnız ansamblda onu çalıram.

**- Heç olmasa, təmir edə bilən usta varmı?**

- Sağ olsunlar, təmir etməyi bacarırlar… Ən yaxşı kanon köhnə- 30-40 ilin kanonudur.

**- Kanonun özünə məxsus tembri olduğu üçün ansamblda ümumi səsin içində səsi batmır, seçilir. Amma konon ifaçısı bir çox məqamlarda arxa planda qalır, yaddan çıxır. Misal üçün, rəhmətlik Asya Tağıyeva ilk qadın kanon ifaçısı idi, amma "xalq artisti" fəxri adını ona vermədilər. Bu sizi rəncidə etmir ki?**

- Bəli, bütün zamanlarda tarla kamança bərkgedən alət olub. Həmişə ona xüsusi hörmət edilib. Məsələ burasındadır ki, kanonda da hər muğamı çalmaq olmur, axı. Olur, amma adamın ürəyi istədiyi kimi alınmır.

**- Həmkarlarının arasında kimlərin ifasını bəyənirsiniz?**

- Azərbaycanda elə bir kanonçalan yoxdur. Mən əsasən türk ifaçılarının çalğısını çox xoşlayıram.

**- Azərbaycanda keçirilən beynəlxalq tədbirlərə xaricdən kanonçalanlar gəlirlər. Sizlər də xaricə bu kimi tədbirlərə dəvət alırsınızmı?**

- Hələ belə təklif almamışam.

*Elə məqamlarla rastlaşıram ki,*
*əlimi qaldırıb "əşi" deməkdən*
*başqa çarəm qalmır…*

**- Təklif almamısınız, özünüz təşəbbüs göstərin, axtarın, qatılın. İndi İnternet vasitəsilə hər yerdən xəbər tutmaq olur…**

- Bilirsinizmi, Azərbaycan bu saat başqa vəziyyətdir. Hər kəs öz adamını irəli çəkir. Kiminsə qapısını döyürsən, açılmır… Həm də bütün ölkələrdə bu dəqiqə pandemiyadır. Konsert filan yada düşmür, hamı canının hayındadır…

**- Kiminsə qapısını döymüsünüzmü?**

- Şəxsən mən döyməmişəm, amma döyənlər olub, heç nə əldə etməyiblər…

**- Hər kəs özü üçün iş görür. Bəlkə sizə düzgün məlumat verməyiblər, ki qapını döyəndə açmırlar… Tənbəllik etməyib, bir özünüz də təşəbbüs göstərin, bəlkə nəticə əldə etdiniz.**

- Elə şeylərlə qarşılaşırsan ki, istər-istəməz inciyirsən. Tənbəllikdən söhbət getməz. Amma elə məqamlarla rastlaşıram ki, əlimi qaldırıb "əşi" deməkdən başqa çarəm qalmır.

**- Kanonu çimdikləməklə gözəl səslər çıxarmağa məcbur edirsiniz" Nə vaxtsa sizdən inciyib, artıq-əskik səs çıxarmır ki?..**

- Xeyr, əslində onu çimdikləməyəndə səndən küsür, şıltaqlıq etməyə başlayır. Gərək kanondan çimdiyini əskik etməyəsən... Bəzi vaxtlarda kanon özü sözümə baxmayıb məni özündən incidib.

Çünki nə qədər istedadlı, virtuoz ifaçı olursan-ol, əgər alət sözünə baxmırsa ifa alınmayacaq.

Hərdən Türkiyə telekanallarında konsertləri izləyirəm. Elə kanonları görürəm ki, qiyməti ən azı 3000 manatdır. Bu kanonu yuxumda da görürəm. Ən böyük arzum belə bir kanona malik olmaqdır. Kaş ki, bir nəfər tapılaydı mənə o kanondan birini hadiyyə edəydi. Elə gözəl ifalar meydana çıxarmaq olardı... Kaş ki…"

**Söhbətləşdi:**
**İltifat HACIXANOĞLU**

***İSMAYIL MƏRCANLI İMANZADƏ***

## GÖZÜ KÖLGƏLİ DEYİLƏM

**Görkəmli ədəbiyyatşünas alim, Professor Qurban Bayramovun 75 illik yubileyinə dost hədiyyəsi**

**Nə od, nə ocaq hisiyəm,**
**Nə də nəfsin köləsiyəm.**
**Allahın dinc bəndəsiyəm -**
**Hirsli-hikkəli deyiləm.**

**Mən gül əkib, tikan dərən,**
**Ömrüm-günüm pərən-pərən.**
**Yetənin üstə çəmkirən -**
**Ağlı zədəli deyiləm.**

**Hökmünü gördüm hər anın,**
**Kəsmədim haqsızın yanın.**
**Bu sərsəm-dəli dünyanın -**
**Sonu, əzəli deyiləm.**

**Demirəm günəşəm-ayam,**
**Sərvətimdir abrım-həyam.**
**"Kəhər atlı" qarışqayam -**
**Qansoran zəli deyiləm.**

**Şeir şehli bar çiçəyim,**
**Xoş söz gözəlim-göyçəyim.**
**Halallıq dilim-dilçəyim -**
**Gözü kölgəli deyiləm.**

## 52 yaşlı şoumen aşiq oldu: 24 yaşlı azərbaycanlı qıza...

**Tanınmış aktyor və şoumen Bəyazid Öztürk illər öncə ailə qurmağa hazırlaşırdı. O, bir müddət birlikdə olduğu əsmər sevgilisi ilə ailə qurmaq qərarına gəldiyi deyilirdi.. Hətta aktyorun anası Nurten Öztürkün də bu qərara sevindiyi bildirilirdi.**

İş o yerə çatmışdı ki, sevgilisi ilə evləndikdən sonra qalmaq üçün ev axtaran Bəyaz Arnavutköydə yerləşən dənizkənarındakı villasını 4.5 milyon avroya satışa çıxarmışdı.

Türkiyəli şoumen Bəyazit Öztürkün sirr kimi saxladığı sevgilisinin model Ebru Gözəl olduğu deyildi. Çünki, cütlük Bəyazın "B-planı" adlı yaxtasında görüntülənib.

Yəqin ki, sevgililər ortaq bir məxrəcə gəlmədikləri üçün ayrıldılar və Bəyaz da subay qaldı.

Adalet.az xəbər verir ki, aparıcı-şoumen Beyazıt Öztürkün yenidən eşqə düşüb. Bu dəfə o azərbaycanlı xanımla sevgili olduğu məlum olub.

Məşhur aparıcının Bebekdəki malikanəsində 2 ildir azərbaycanlı sevgilisi Lavin Ayla birlikdə yaşadığı ortaya çıxıb.

Öztürkdən 28 yaş kiçik olan 24 yaşlı Lavin Ayın diksiya dərsləri alaraq türkcəsini inkişaf etdirdiyi öyrənilib.

Cütlüyün münasibətinin evliliklə bitib-bitməyəcəyi müzakirə mövzusudur.

**Qeyd edək ki, Beyaz olaraq tanınan, türk aparıcı, televiziya və radio aparıcısı, film, teatr və serial aktyoru Beyazıt Öztürkün hazırda 52 yaşı var.**

**Əntiqə Rəşid**

# "İnsanlar komediyalardan qaçır"

***Həmsöhbətimiz məşhur mahnı mətnlərinin müəllifi, şairə Sairadır.***

### *Yoldaşım özüm olmağa icazə vermirdi*

**-Bir gün Səyyarə Sairaya çevrildi. Nə səbəb oldu buna?**

-Hadisələr, insanlar. Özümü və taleyimi başqalarının əlindən aldım və özümü yenidən yaratdım. Hər şey təkcə adla bitmir. Saira başlanğıcın adı oldu.

**-Hit olmuş mahnıların müəllifisiniz. Amma mahnıların populyarlığı sizin adınıza sirayət etməyib.**

-Çünki o zamanlar ailə vəziyyətimə görə çox ağartmırdım. Yoldaşım icazə vermirdi. Ümumiyyətlə, mənim mən olmağıma icazə vermirdi. İndi isə yenə də kiçik təvazökarlıq deyək buna. Yəni, özümü tərifləməyi sevməməkdən irəli gəlir.

**-Hansı müğənnilərlə çalışmaq sizə çətin olub?Yəni, peşman olmusunuz...**

-Mənimçün çətin müğənni yoxdur. Çox zaman aranjimançılarla çalışıram.

İlhamə Quliyeva ilə Nadir Qafarzadə arasında bir mahnımın üzərində kiçik mübahisə var idi, sonda mahnını Vüqar Muradov oxudu.

O da heç istədiyim kimi daşıya bilmədi, mahnı üzə çıxa bilmədi. Kaş, İlhamə Quliyeva oxuyardı deyə heyfsilənirəm.

### *Öyrəndiklərim mənə zövq verirdi*

**-Ssenarilər yazmısınız. Seriallar, filmlər...**

- Bəli, o sahədə də özümü sınamışam. Kiçik ssenarilər, skeç, dialoqlar yazırdım. Bacanaqlar yeni başlamışdı. Uşaqlara dialoq təklif etmişdim Elməddin Cəfərova. Bəyənmişdi. Rəsmi çalışmaq istədikdə yenə yoldaşım icazə vermədi, ordan da qaldım yarımçıq. Ara-sıra "Comedy Baku" üçün kiçik skeçlər yazırdım. Heç düzünü desəm gedib izləməyə də icazəm yox idi evdən... Sonra Vaso Qarayevlə tanışdıq bir sosial şəbəkədə. Yazmağa meylim olduğunu bildi. Bir roman yazdım, bəyəndi. Sonra mənə kinoşunaslıq haqda dərslər verdi. Hətta serial çəkirdi. Mənə kiçik sinopsisini verdi, onun əsasında serialın bütün ssenarisini mən yazırdım. Bəyənirdi..Kulminasiyada bitirmək hər bölümü, həyəcan biraz yumor qatmaq. Tam mənə etibar etmişdi. Serial maliyyə üşün sponsor tapılmadı deyə qaldı, amma öyrəndiklərim mənə zövq verirdi.

**-Seriallarımız haqqında tənqidləri tərifdən daha çox eşidirik.Nə çatışmır? Ssenari, aktyor, ya rejissor işi?**

-Ümumiyyətlə, musiqi aləmində də kino aləmində də indiki çalışdığım marketinq aləmində də hər şey tamaşaçının, potensial alıcının zövqünə uyğundur. Mən rejissorlardan şikayət etmirəm, çox da gözəl rejissorlarımız var, aktyorlarımız da var, əjdaha ssenarilər də var.Elə özümdə iki seriallıq ssenari var, amma bununla

əlaqədar sponsor tapa bilmirəm. Bizim seriallar indi-indi dərinləşməyə, maraq yaratmağa başlayır. Ümid edirəm, kino aləmi də belə olar. İnsanlar artıq komediyalardan qaçır. Psixoloji və dramalara üstünlük verirlər. Çox guman ki, pandemiya da buna biraz təsir edir.

**- Bəzən Ramiz Rövşən havasıyla yazmaqda sizi ittiham edirlər.**

-Keçən dəfə bir məclisdə məni bir tanınmış iş adamına təqdim edəndə şerimi dedim. Mən şerimi başladım, adam davam elədi sonra dedi siz gözəl xanımsınız, niyə yalan danışırsınız ki, bu şeir sizindir. Bu, Ramiz Rövşənin şeiridir. Sonra mən qaldım qıraqda məni tanıyan dostlar ona sübut etdilər. Səbəb odur ki, mən bununla qürur duyuram. Ramiz Rövşənin bütün şerlərini sevirəm. Ən çox sevdiyim, şeirlərilə ruhumdan xəbər verən şairdir. Şeirlərimi ona oxşatmağa çalışmıram, sadəcə mən misralarda qafiyələri qırmadan basit dildə deyilməsini sevirəm. Yəni, baxırsan şeirdir, qafiyələri də var, amma elə bilirsən adam sənlə danışır, bədii yox səmimi şerlərdir.

**-"Comedy club"a da ssenarilər yazmısınız. Onların gələcəyini necə görürsünüz? Sıradan gündəmə uyğun əyləncə xarakterli, ya?**

- Azərbaycanda ikinci Anar Məmmədxanov kimi insan olsa "comedy club" sahəsi də yenidən canlanacaq. Çünki maddi dəstək böyük amildir bir sahənin güclənməsinə və şaxələnməsinə.

### *Ailə həyatı mənə mane oldu*

**-Sizinlə danışdığım qədər ailə həyatını qadınların yaradıcı həyatına mane olur...**

-Başqa qadınları deyə bilmərəm, amma mənə mane oldu. Amma bir insanın içindəkiləri sıxmaqla deyil. Qızıl qəfəsdən çıxıb yenə yaradıcılığa qayıtdım. İnsanın ruhunu dəyişmək mümkün deyil. Yaradıcılıq mənim ruhumdadır. Hansı sahədə çalışsam yenə o sahəni yaradıcılıqla əlaqələndirəcəm, kreativ yanaşacam və fərqli yol çizəcəm. Necə ki, Namiq Qaraçuxurlu meyxanaya yeni nəfəs gətirdi, necə ki, Hüseyn Dərya repə yeni nəfəs gətirdi, necə ki, Pərviz Bülbülə meyxananı musiqiylə cütləşdirdi.

**- Türk, ingilis, rus dilində də mahnı sözlıri yazırsınız.**

-İngilis dili təhsilim olduğuna görə, rus dilinə və türk dilinə mükəmməl sahibləndiyimə görə bu dillərdə daha çox sözlər istəyirlər məndən. Azərbaycanca olan mahnılarda da ingilis və digər dillərdən sözləri işlətməyi sevirəm. Məsələn, Nadir Qafarzadə- Pardon.

**-Bu qısa həyatı bütün bunlara həsr etməyə dəyərmi? Bəlkə də bir sevgi, huzur tapdığın birinin yanı bütün bunlardan üstündü...**

-Bu qısa həyatda bütün bunlarla qəbul edən,daşıya bilən insanın yanında huzur tapmaq istəyirəm.Sabah ölsəm,dünyadan köçsəm məndən geriyə mahnılar, şeirlərim qalacaq.Bəs,mən nə qazandım desəm bu suala cavab tapmamaqdan qorxuram.Çünki hələ özümü görmək istədiyim yerə çatmamışam. Hələ istədiyim həyatı yaşamıram.Ümid edirəm,yaşayacam.

**Söhbətləşdi:**
**Emin Piri**

# "İndi AYB-ni tənqid eləmək bu ölkədə ən asan işdi"

***Gənc şair Ruslan Dost Əli Adalet.az saytına müsahibə verib.***

**- Ruslan, ilk öncə adından danışaq. Nə deməkdir? Hardan qaynaqlanıb?**

- Əvvəlində "Rus" komponenti olduğuna görə çoxları elə bilir ki, Ruslan rus adıdır. Amma belə deyil. Ruslan qədim türkcədə "aslan" deməkdir. Təbii, doğulanda adımızı seçmək kimi bir üstünlüyümüz olmur. Açığı, adımdan xoşum gəlir. Hərdən evdə deyirdim, kaş adımı Dostəli qoyardınız. Sonra elə oldu, Dostəlini də təxəllüs götürdüm. İstəyimə çatdım. İndi adımdan da, təxəllüsümdən də razıyam. Amma onu da deyim ki, böyük mənada, adın heç bir fərqi yoxdur.

**- Üç adı olan yaradıcı adam görəndə yadıma Qulu Ağsəsin bu "üç adı olan adamlar istedadsız olur" sözü düşür. Nə düşünürsən, düzmü deyir, Ruslan Dost Əli?**

- Məncə, əksinə olur. Cəmi iki ad kifayət edəcək: Mirzə Ələkbər Sabir, Mirzə Fətəli Axundov. Qulu Ağsəsin yumor hissi güclüdür. Bunu nəzərə almaq lazımdır...

**- Ədəbi cameədən bir qədər uzaq görsənirsən. Adın çox da hallanmır. Özün belə istəyirsən, ya səni görməzdən gəlirlər?**

- Haqlısan. Xeyli uzağam. İndi gündəmdə olmaq çox asandı. Adın çox hallanmağı isə istedad göstərici deyil. Düşünmürəm ki, məni görməzdən gəlirlər. Sadəcə, indi elə yerdə durmaq lazımdır ki, hardan baxsalar görünəsən. Bu mənada yerim pis deyil...

**- Məsələn, səni görmək istəyən hardan baxa bilər? Həqiqi və məcazi mənada. Üzdə deyilsən, necə görə bilərlər səni?**

- Okeanın dərinliklərindəki mirvariləri görə bilmək üçün ən azı üzməyi bacarmaq lazımdır. Bir də ki, şərt hardan baxmaqda yox, necə baxmaqdadı.

**- Ruslan, xaricdəki təhsilindən danışaq bir az. Daha dəqiq, ordakı ədəbi əlaqələrdən, ora ilə buranın ədəbi mühit fərqindən, ədəbiyyata yanaşmadan...**

- Qazaxıstanın ədəbi mühiti bizimkindən çox da fərqlənmir. Bəzən elə olur, haqqı çatandan daha çox əvvəldən konkret danışılmış, razılaşdırılmış adamlara mükafatlar verirlər. Eynilə bizdəki kimi. Bir faktı deyəcəm. Universitetimizdə şeir müsabiqəsi keçirilirdi. Müxtəlif türk xalqlarından iştirakçılar vardı. Mənim söylədiyim şeir çox bəyənilmişdi. Münsiflərdən bir nəfər məni çəkdi qırağa, dedi ki, şeirin çox gözəldi, qəşəng də dedin. Birinciliyə laiqsən. Amma bura Qazaxıstandı, qazağı qoyub, səni birinci edə bilmərik. Beləcə mən ikinci oldum. Ordakı ədəbi mühit deyəndə, ilk yadıma düşən bu hadisə olur. Ədəbiyyat baxımından yanaşsaq, bizdə vəziyyət daha yaxşıdır. Bizdə şeir daha güclüdür, belə demək mümkünsə, bizdə şeir daha şeirdir...

**- Bəs oranın Yazıçılar Birliyi?!**

- Açığı, bu barədə məlumatım yoxdur. Mən Türksütan şəhərində təhsil almışam. Yazıçılar birliyi burdan xeyli uzaqda - Almatıda yerləşir. Orda olmamışam. 5 illik təhsil müddətində "Qazaxıstan Yazıçılar Birliyi" ifadəsini ən yaxşı halda 5 dəfə eşitmişəm.

**- Yazıçı-şairlərə aid olduğuna görə hər kəsə verdiyim eyni sual var; Azərbaycan Yazıçılar Birliyinə qarşı münasibətin necədir? Ədəbi fəaliyyətləri bir şair kimi qane edirmi səni?**

- Söhbət sırf mənə qarşı münasibətdən gedirsə, narazılıq eləməyə haqqım yoxdur. Bu qurumdan özümə qarşı həmişə xüsusi diqqət görmüşəm. Bir məqamı demək istəyirəm. Bunu heç vaxt heç yerdə demədiyimə görə etiraf kimi də qəbul etmək olar. Mənə Prezident təaqüdü ayrılanda Qazaxıstanda yenicə təhsil almağa başlamışdım. Maddi vəziyyətim yaxşı deyildi. Növbəti illərdə də bu təqaüdə ehtiyacım olacaqdı. Anar müəllim bunu nəzərə aldı və mən ardıcıl olaraq 3 il Prezident təqaüdü aldım. Bu işdə Rəşad Məcidin rolunu xüsusi qeyd eləmək lazımdır. O ki qaldı AYB-nin başqalarına və başqalarının AYB-yə münasibətinə. Bilirsiz, indi özünü şair, yazıçı hesab edən bir dəstə adam bu qurumdan müxtəlif imtiyazlar umur, onları himayə etməsini istəyir. Bu, yaxşı hal deyil. Mən AYB-ni həmişə müdafiə eləmişəm və yenə eləyəcəm. Düzdür, deyəcəksiz ta 3 il təqaüd almısan də, gəl hələ eləməyəsən. Amma məsələ bunda deyil. Problem hər yerdə var. Müəyyən narahatlıqlar, çatışmazlıqlar barədə deyilənlərə gəlincə, iş, fəaliyyət olan yerdə bəzən gözdən qaçan məqamlar olur, bunu böyük qüsur kimi təqdim eləməyin tərəfdarı olmayanlardanam. Unutmayaq ki, AYB ictimai qurumdu, dövlət strukturu deyil, subyektiv baxışlar, fərdi yanaşmalar belə təşkilatlarda daha öndə olur. Yəni, mütləq tənqid eləyənlər filankəslə dostdu, tənqidçilər daha obyektivdi yanaşması kökündən yanlışdı. Ədəbi qurum təlatümlərin toplumudu. Razılaşaq ki, bu mənada belə qurumun fəaliyyətini mütləq dəstəkləmək, yaşamasına və inkişafına nail olmaq lazımdı. Təsəvvür edin ki, AYB yoxdu. Boşluğun fərqinə vardınızmı?

**- 3 il təqaüd aldığını deyirsən, səncə, bu, bir az da başqalarının haqqına girmək deyilmi? O təqaüdü almaq istəyən, amma AYB-yə münasibəti yaxşı olmadığına görə ala bilməyənlər var...**

- Gözlənilən sualdı. Bilirsiz, əhvalatın əsas hissəsini unudub bu cür də qiymət vermək Sizin haqqınızdı. Axı, məsələnin mənimlə bağlı olan hissəsi var, əvvəldə xatırlatdım, xaricdə təhsil alan kasıb bir tələbəyə, şairə edilmiş dəstəkdi bu. Məni bu mənada fərqləndiriblər, inanıram ki, iki və ya 3 dəfə təqaüd alan digər dostlarımızı da məhz hansısa xüsusi məqama görə seçiblər. Burda tərəfkeşlikdən söhbət gedə bilməz, çünki mən özümdə bunu gördüm. Sadə bir kənd uşağını, tələbəni heç bir xüsusi təmənna olmadan seçdilər.

Mən belə gördüm və gördüyümə inanıram. Bu haqda neqativ danışanlarsa, çox vaxt qərəzli gəlir mənə. Çünki mən heç bir qarşılıqsız bu diqqəti görmüşəm. Dostlarımsa şeir yazdığına, hekayə quraşdırdığına görə bu təqaüdü tələb edir. Heç bir xüsusi hal, istisna olmadan. Vallah, heç olmasa, biraz təvazökarlıq yaxşı şeydir.

Bir detalı da deyim, indi AYB-ni tənqid eləmək bu ölkədə ən asan işdi, iki qaralama çap eləyirsən və başlayırsan ki, Anar pisdi, Rəşad yaxşı deyil və sairə. Axı, bunun harası ədəbiyyatdı, harası novatorluqdu ki, bizim xəbərimiz yoxdu? Burda bir digər məsələ də var. Deyirsiz **daha maraqlıdır, şeir kütləvi deyil, bir çox şairlər də nəsrə keçir bir yerdən sonra. Buna münasibətin necədi, düzmü deyirlər?**

- Mən də hekayələr yazdım bir ara. Nəsrin öz cazibəsi var, xüsusi dramaturji modellər, dərin biliklər, böyük təcrübə tələb edir.

Nəsr bu mənada öndə görünə bilər. Amma mən şeir yazıram və şeirin yanındayam.

Şeir həm də birbaşa vəhy məsələsidir. İlahidir. Onu gələndə yazırsan. Nəsrə isə zaman və hövsələ lazımdır.

**- Ruslan, son olaraq səni tanımayanların bu müsahibəni oxuyandan sonra hansı şeirini oxuyub tanımağını istəyərdin? Sənə o şeirlə baxsınlar, görsünlər...**

***- "siz heç nə bilmirsiz, heç nə bilmirsiz,***
***mən adam deyildim, adam deyildim.***
***hara and içim ki, inanasınız.***

***hardasan, səhərdən səni gəzirəm,***
***hardasan, bir topa, bir əlçim bulud!***
***həmişə sən yağırdın, biz islanırdıq,***
***bu dəfə mən yağdım, di gəl çim, bulud.***

***yağdım ağaclara, yağdım quşlara,***
***damdım bu evlərin damınnan, di gör.***
***bir adam sənintək yağmaqdan ötrü,***
***gör, nətər keçirmiş canınnan, di gör.***

***yağdım, bu kəndi də sel-su apardı,***
***gördüm ki, atama söyür adamlar.***
***ay bulud, mən tanrı qapısıyammı,***
***məni harda tutdu döyür adamlar.***

***nə qədər istəsən yağım başından,***
***utanma, utanma, dur, gəl, çim, bulud.***
***yağmaq nə gözəlmiş, ah, nə gözəlmiş,***
***ay bir topa bulud, bir əlçim bulud.***

***azca yağ dedilər, söydülər məni,***
***mən bu yer üzünə boşuna gəldim.***
***deyəsən, bir tanrı üzümə baxdı,***
***deyəsən, bir onun xoşuna gəldim.***

***dedim, mənə dəymə, yağım, yaşayım,***
***qoy hamı öyrənsin sulu qalmağa.***
***gördüm ki, bir yetim uşaq titrədir,***
***dayandım, yollandım günəş olmağa...***

***gördüm ki, quruyur bütün ağaclar,***
***gördüm ki, adamlar su axtarırlar.***
***gördüm, sususzluqdan ölür adamlar,***
***bir qurtum suyu da bölür adamlar.***

***...özün bil, özün bil, özün bil, bulud.***
***daha mən yağmıram, di get, öl, bulud.***

***baxdım buludların o nəm cildinə,***
***günəşə boylandım, baxa bilmədim,***
***qayıtdım, qayıtdım adam cildinə..."***

**- Müsahibə üçün təşəkkür edirik.**
- Mən də təşəkkür edirəm.

**Söhbətləşdi;**
**Orxan Saffari**

# Kulinariyanın və sağlamlığın "canı" Gicitkən - Dəmləməsi, kətəsi, küküsü, qovurması, salatı...

**Bax elə bu vaxtlar, yazın bu gözəl zamanında kəndimiz sanki yamyaşıl bürüncəyə bürünürdü. Az qala işlək olan asfaltı da gül-çiçək , ot-əncər basa... Bülbüllərin səsi, minbir çiçəyin, adi bildiyimiz otların ətri, qoxusu burnumuzu dəlib beynimizə, ürəyimizə işləyərdi. O vaxt bütün yabanı, amma yeməli bitkilərdən əvvəl gicitkən gözə dəyərdi. Hətta biz onu iki "növ"ə bölmüşdük: dəli və bir də ağıllı gicitkən! Guya ağıllı gicitkəni yeyəndə adam ağıllı olur, dəlisini yiyənlərdə dəli olur...İnanırdıq.. nə bilim uşaq ağlı... Amma yaxın getməzdik. Çünki, gicitkən haramza dəydisə bizi "yandırıb-yaxırdı", o hissəmizin qaşıyıb qanınını çıxarırdıq.**

Amma o da yadımdadı ki, yaşlı qadınlar əllərinə əlcək keçirib dəlini saxladıqları körpə cücələrə verər, ağıllını isə ya duzla ovub, ya yağ soğanda qovurub üstünəyumurta vurub. sarımsaqlı qatıq əlavə edər, ya da göy kətəsi edib yeyərdilər. Yerdə qalan gövdəsini, lazımsız yarpaqlarını suda qaynadıb başlarını- saçlarını yuyardılar. Böyüyəndən sonra dəli gicitkənində ağıllı gicitkənin faydalarını dəqiq bildim. Siz də bilin!

### *"Gicitkən həkim"in müalicəsi*

Gicitkən A, E, C, K vitaminləri, dəmir, maqnezium, mis, kalsium mineralları, flavonoidlər, orqanik turşular, fitonsidlər, xlorofill, qlikozid və s. faydalı maddələrlə zəngindir.

***Gicitkən orqanizmi möhkəmləndirir, onu lazım olan vitaminlərlə təmin edir, vitamin çatışmazlığı zamanı faydalıdır. Gicitkən orqanizmdə gedən mübadilə prosesləri və immun sistemini stimullaşdırır, xroniki xəstəliklər zamanı orqanizmin müdafiəsini gücləndirir. Gicitkəndə olan xlorofill orqanizmə güclü stimullaşdırıcı və tonuslaşdırıcı təsir edir, yara və xoraların sağalmasını tezləşdirir. Gicitkən qadın sağlamlığı üçün də faydalıdır. Güclü menstrual qanaxmaların, klimaks zamanı qanaxmaların qarşısını alır, uşaqlığın tonusunu qaldırır. Lakin hamiləlik zamanı gicitkən ziyanlıdır ki, doğuşu tezləşdirə və ya dölsalmaya səbəb ola bilər.***

Bitkilər üzrə mütəxəssis Fizuli Hüseynov deyir ki, "gicitkənin tərkibi bir Mendeleyev cədvəlidir". Sanki bütün vitamin və minerallar bu bitkinin içinə qoyulub.

Daha sonra loğmanımız qeyd edir : "İndi yaz gəlir insan orqanizmi qışdan çıxanda bədəndə vitamin-mineral əksikliyi əmələ gəlir, əsasən də uşaqlarda. Deməli, əlinizə rezin əlcək geyinib gicitkəni dərin suda yuyun və qayçi ilə doğrayıb bir stəkanın yarsına qədər tökün, üstünə su əlavə edib blenderlə qarışdırın, təzə gicitkən şirəniz hazırdır. Bu şirədən gündə 2 stəkan, yeməkdən əvvəl 1 stəkan için. Bu, insan bədənində çatmayan bütün vitaminləri və mineralların yerini dolduracaqdır. Əsasən də dəmirlə zəngindir, anemiyalı xəstələr sizin üçün çox faydalıdır."

Onun sözlərinə görə, təzə gicitkən şirəsi damarlarda oksigenin miqdarını artırır və toxumaların qidalanmasını yaxşılaşdırır, qəbizliyi aradan götürür, böyrəklərin daş və qumlarını təmizləyir. Təzə gicitkən şirəsi dərini təravətləndirir, immuniteti artırır, Bundan başqa təzə gicitkəndə zəngin K vitamini vardır. Bu vitamin təzə qan yaradır və sümük iliyində problemlər olanlar üçün faydalıdır. Təzə gicitkəni dərin, süpürgə kimi düzəldin, saunada və ya hamamda dizlərinizi, belinizi təzə gicitkənlə döydürün. Revmatizmdə, bel ağrılarında və orqanizmi qüvvətləndirmək üçün çox faydalıdır (tələbə vaxtı bunu çox etmişik).

Təzə gicitkəni ət maşınından keçirin, tökülmüş saçların yerinə lopa kimi qoyun, yeni tük gətirəcək, olan saçlarınızı qalınlaşdıracaq. Bunu zob üzərinə qoyanda düyünlər kiçilir. bunu daban mahmızı üzərinə qoyanda mahmız kiçilir, bu oynaqların duzlaşmasında oynaq üzərinə qoyulur, bunu podaqra üzərinə qoyanda şiş kiçilir, belin alt tərəfində tüklər bədənə girib infeksiya törədirlər (çox təhlükəli olur) bunu həmin büzdümün üstünə qoyanda keçir, bunu dəmrovların üzərinə qoyanda dəmrov və ekzema əhəmiyyətli dərəcədə azalır, bunu lipomaların üstünə qoyanda kiçilir.

Təzə gicitkən şirəsini 10 gün içib 1 həftə fasilə vermək lazımdır, çünki qanı qatılaşdıra bilər. Gicitkən kökləri prostat vəzin adenomasında (şişlərində) çay kimi dəmlənilib içilir.

### *Gicitkənin kətəsi, kük qovurması, salatı...*

Naxçıvanda təndirdə bişirilən göy kətələrinin içində gicitkən kətəsinin və küküsünün xüsusi yeri var.

Gicitkən küküsü bəzi bölgələrimizdə gicitkən qovurması adıyla məşhurdu. Qovurmanı( kükü) aşağdakı qaydada hazırlayırlar 1 dəstə gicitikan otu, 4-5 ədəd yaşıl soğan, 3 diş sarımsaq,1\2 çay qaşığı zeytun yağı, duz, pul bibər, 2 yumurta. Hazırlanması da sadədir: Gicitikasnın yarpaqları təmizlənir. Bol suda bir neçə dəfə yuyulub süzülür. Zeytun yağında incə doğranmış soğan, sarımsaq və gicitikan 10 dəqiqəyə yaxın bişirilir. Çırpılmış iki yumurta , duz, pul bibər istiot əlavə edilir vəyumurta bişincə ocaqdan alınır. Arzuya görə sarımsaqlı yaxud sarımsaqsız qatıqla birlikdə "bəh-bəh"lə yeyilir.

**Türkiyədə bu yabanı bitkidən salatlar da hazırlanır. Salatın tərkibinə göy soğan, cəfəri, sarımsaq, nar dənələri şor və sair qatılır. Belə salatlar bişmiş gicitkəndən daha üstün faydaları olacağını düşünürük!**

**Nuş olsun!**

**Əntiqə Rəşid**


**Elanlar**

**İsmayıllı rayonu, Tircan kənd sakini Məmmədov Yalçın Qəhrəman oğluna məxsus torpaq sahəsinin plan və ölçü sənədi (Reyestr nömrəsi 407 013 004 871) itdiyi üçün etibarsız sayılır.**

***

**Manafov Məcid Osman oğlunun adına verilmiş vətən müharibəsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 99**
Çapa imzalanmışdır:
31.05.2021